# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 04 (3420) Cümə axşamı / 27 yanvar - 2 fevral 2022-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## Qərb Ukraynanı müharibəyə təhrik edir



**Ünver Sel,**
Krım İnkişaf Fondunun və Krım Tatar Mədəniyyət Dərnəkləri Federasiyasının sədri

***Krımın Rusiya tərəfindən işğal edilməsi bütün bölgədə vəziyyəti korlayıb, hətta az qala üçünü dünya müharibəsi səviyyəsinə gətirib çıxarıb. Rusiya isə deyir ki, Krım mənimdir, vəssalam. Şərqi Ukraynanın da rusların ana vətəni olduğunu iddia edərək, buranı separatçı bölgəyə çevirib. Elə bugünkü Rusiya - Ukrayna müharibəsi təhlükəsi daha çox bu separatçı bölgədən qaynaqlanır. Krıma qayıdaq: krımlı liderlər bu gün əsasən Kiyevdə fəaliyyət göstərirlər. Səbəb də aydındır:***

*Boş xəyallara qapılaraq, tatar xalqını eynilə 1944-cü ildəki kimi, macəraya sürükləməyin faydası yoxdur*

Səh. 5

# Ağdamlılar qayıdışla bağlı sorğudan narahatdır

***İşğaldan azad olunmuş rayonların sakinləri, eləcə də Ağdam camaatı - keçmiş köçkünlər öz ata-baba, doğma yurdlarına dönəcəkləri günü səbirsizliklə gözləyirlər. Böyük Qayıdışa gedən yol qısaldıqca, narahatlıqlar da çoxalır. Əsasən də, qayıdışla bağlı aparılan sorğularda verilən suallar və tələblər... 28 ildə öz evindən didərgin salınan ailələr şaxələnib, böyüyüb və yaxud digər dəyişikliyə məruz qalıb. Bu mənada belə sorğuların keçirilməsini məqbul hesab edənlər də var, verilən suallardan narazı qalanlar da. Qeyd edək ki, sorğunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi keçirir. Ağdama köçürülməsi nəzərdə tutulan insanların əgər köçkün statusu varsa, adları məlum siyahıdadırsa, onlara zəng vurub suallar verirlər: "Bakıda eviniz varmı? Nə işlə məşğulsunuz? Eviniz varsa, gəlib şəraitinizlə tanış olacağıq, evinizə baxış keçirəcəyik" və sair... Bu suallar bir çox ağdamlılarda çaşqınlıq yaratmaqla yanaşı, həm də böyük narahatlığa səbəb olub, ajiotaj yaradıb.***





Bu sorğularda məqsəd nədir? Bakıda evi olan ağdamlı, yaxud hər hansı məcburi köçkün gedib Ağdamda qalan evini, torpağını alıb orada yaşaya bilməzmi? Yaxud hansısa məcburi köçkünün Bakıda, yaxud başqa yerdə villası varsa, özünə iş qurubsa, illərdir öz torpağının həsrəti ilə yaşayıb, ora getmək arzusundadırsa, qayıdış zamanı həmin adamlara ev verilməyəcəkmi?

■ **Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin (QMKDK) Mətbuat Xidmətinin rəhbəri İbrahim Mirzəyev "Həftə içi"nə bildirib ki, nəticə etibarilə belə sorğulardan narahat olmağa dəyməz.**

QMKDK sözçüsü qeyd edib ki, komitədə məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıdışı və daimi yaşayış yerlərində dayanıqlı məskunlaşması məqsədilə hazırlanmış "İLK (İnamlı, Ləyaqətli, Könüllü) addım" elektron idarəetmə sistemi qurulub.

"Bu sistemə hər bir məcburi köçkünə aid məlumatlar, onların statusu, müvəqqəti məskunlaşma obyekti, kommunal xidmətlərdən istifadəsi və köçürülmənin şəffaf, effektiv həyata keçirilməsi üçün zəruri olan digər məlumatlar toplanıb.

Dövlət Komitəsinin Monitorinq şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad olunmuş rayonlara qayıdacaq məcburi köçkünlər arasında şəxsi və demoqrafik məlumatlar, işğaldan azad olmuş ərazilərə qayıtmaq, məşğulluq və gəlirləri haqqında verilən suallar əsasında dürüstləşmə aparılır. Bundan sonra əldə olunmuş əlavə məlumatlar köçkünlərin Böyük Qayıdışı zamanı istifadə ediləcək vahid məlumat bazasına daxil edilir".

*Məlumatlar Böyük Qayıdış zamanı istifadə ediləcək vahid məlumat bazasına daxil edilir*

*İstəyir burada evi, maşını, var-dövləti olsun, o, öz evinə qayıtmalıdır...*

*Təlimatsızlıq, sualın düzgün verilməməsi halı da ola bilər*

*Zəng vururlar ki, Qayıdacaqsınız Ağdama?, Əlbəttə, qayıdacağam...*

■ **124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsindən olan deputat Elman Məmmədov bildirib ki, bu sorğu ötən ildən başlayaraq bütün rayonlar üzrə keçirilir.**

Onun sözlərinə görə, belə sorğular ümumi rəyi, münasibəti öyrənmək məqsədi daşıyır. Deputat hesab edir ki, belə sorğular insanların qayıdışına heç bir maneə yaratmayacaq bir məsələdir. Deputat deyir ki, bu, sadəcə sosial tədqiqatları aparmaq üçün nəzərdə tutulur. O ki qaldı sorğu götürənlərin vətəndaşdan "Eviniz varmı, şəraitinizə baxacağıq" kimi sözlər işlətməsinə, belə yanaşma mənasızdır.

"Bu qaçqın və köçkünlər 30 ildir ki, evlərindən didərgin düşüb Azərbaycanın müxtəlif rayonlarında məskunlaşıb. Bir neçə ayı, ili çıxmaq şərtilə bu insanlar ağır durumlarda yaşayıblar. Qaçqın, köçkünlər bura Amerikadan gəlməyiblər ki?.. Bunlar Azərbaycan vətəndaşlarıdır. Köçkün olanda da işləyiblər, çalışıblar, ağlını işlədiblər, fiziki əziyyət çəkib, pul qazanıblar. Eləsi var, özünə ev tikib, maşın alıb. Əksinə, biz sevinməliyik ki, bu insanlar zəhməti, əziyyəti ilə özünə şərait yaradıb. Hesab edirəm, bu belə də olmalıdır.

Kiminsə evinin olmasının o insanların öz yurdlarına qayıdışı məsələsinə heç bir dəxli yoxdur. Hər kəs öz dədə-baba yurduna qayıtmağının həsrətini çəkir. İstəyir burada evi, maşını, var-dövləti olsun, o öz evinə qayıtmalıdır. Bu insanlardan biri də mən. Mütləq qayıdacağıq doğma yurd-yuvamıza. Bu sorğunu nə mənada soruşurlar, özləri bilər. Hamı öz doğma yurt-yuvasına qayıdacaq".

E.Məmmədov vaxtilə Nazirlər Kabinetinin 2017-ci il yanvar tarixli qərarına qarşı etdiyi çıxışına da diqqət çəkib. Deputat bildirib ki, həmin qərara əsasən bir sıra məcburi köçkünlərin çörəkpulu dayandırılmışdı.

Səh. 6

BİZİM SƏFİR



**Hassan Hamidir,**
Mərakeş Krallığının Azərbaycandakı keçmiş səfiri

■ Azərbaycan mədəniyyətinin korifeyləri ilə görüş məni çox sevindirdi...

■ Azərbaycan mənim romantik və intellektual yaradıcılığım üçün böyük ilham mənbəyi olub...

■ Yenidənqurulmuş şəhərləri ziyarət etmək isə mənim üçün böyük bir kəşf olacaq...

Səh. 7

GÜNÜN FOTOSU...



**Türkiyə hərbçiləri Azərbaycan komandolarına təlim keçir...**

GÜNÜN SİTATI

*ABŞ və Qərb ölkələri digər ölkələrin maraqları ilə hesablaşmadan özləri üçün təktərəfli üstünlük təmin etməyə çalışırlar*



**Sergey Lavrov,**
Rusiyanın xarici işlər naziri

KARİKATURA



**Ermənisayağı istefa...**

## Ermənistan prezidentinin "gözlənilməz qaçışı"

**Elxan Şahinoğlu,**
politoloq

Bu o deməkdir ki, Armen Sarkisyan bir il əvvəlki kimi düşünür, ölkəsi üçün perspektiv görmür.

Səh. 3

STATİSTİKA



■ **2021-ci ildə Azərbaycanda mehmanxanaların gəlirləri 2020-ci illə müqayisədə 79,1% artaraq 209,2 mln. manat təşkil edib.**

Gəlirlərin 59,7%-i nömrələrin (otaqların) təqdim olunması üzrə xidmətlərdən, 28,9%-i ictimai iaşə xidmətlərindən, 2,5%-i müalicə və sağlamlıq xidmətlərindən, 8,9%-i isə digər xidmətlərin göstərilməsindən əldə edilib. 2021-ci ildə mehmanxanaların birdəfəlik tutumundan istifadə 11,2% səviyyəsində olub (2020-ci ildə 6,5%).




Səh. 3

## Dövlət Gömrük Komitəsinin 30 yaşı tamam olur

XƏBƏR LENTİ

## Rəisi Zakir Həsənovu qəbul etdi



**Yanvarın 26-da İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi bu ölkədə rəsmi səfərdə olan müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Müdafiə Nazirliyindən hafta.az-a verilən məlumata görə, İran Prezidenti xalqlarımızın əsrlər boyu mehriban qonşuluq şəraitində yaşadığını, Azərbaycan-İran ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirib. Ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin önəmini vurğulayan İran İslam Respublikasının Prezidenti dostluq və qardaşlıq münasibətlərinin qarşıdakı illərdə də uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib. Qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-polkovnik Z.Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin salamlarını Prezident Seyid İbrahim Rəisiyə çatdırıb.

Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qələbəmizdən sonra azad edilmiş ərazilərimizdə görülən işlər barədə məlumat verib. Görüşdə ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

## "Media haqqında" yeni qanun layihəsi müasir tendensiyalara cavab verir

**Heç kimdə şübhə olmamalıdır ki, Azərbaycanda "Media haqqında" yeni qanun layihəsi müasir tendensiyalara və standartlara cavab verir, eləcə də KİV-in fəaliyyət sahəsini genişləndirir. Hafta.az-ın məlumatına görə, bu barədə Medianin İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılovun Avropa Şurasının insan haqları üzrə komissarı Dunya Miyatoviçə ünvanladığı məktubda deyilir.**



Bu məktub D.Miyatoviçin Milli Məclisdə qəbul olunan "Media haqqında" qanuna tənqidinə cavab olaraq yazılıb.

Məktubda deyilir ki, Azərbaycan demokratik cəmiyyətin vacib tərkib hissəsi olaraq KİV-in azadlığına böyük əhəmiyyət verir.

"Azərbaycanda söz azadlığı və KİV azadlığına milli qanunvericilk, eləcə də ölkəmizin beynəlxalq öhdəliklərinə müvafiq şəkildə tam əməl olunur. Azad KİV-lərin və söz azadlığının təşviqi Azərbaycan hökuməti üçün prioritetdir.

Azərbaycan Prezidentinin 12 yanvar 2021-ci il tarixli fərmanı ilə Medianin İnkişafı Agentliyinin yaradılması da bununla bağlıdır. Bu fərman KİV sahəsində keyfiyyət dəyişikliklərinin təmin olunması üçün islahatların dərinləşdirilməsini nəzərdə tutur", - deyə məktubda vurğulanır.

Qeyd olunur ki, D.Miyatoviçin sözlərinin əksinə olaraq, qanun layihəsi müasir demokratik cəmiyyətin bütün tələblərinə cavab verir və peşəkar jurnalistika fəaliyyətinin maneəsiz və səmərəli icrasının təmin olunması mexanizmlərinin möhkəmlənməsinə yönəlib. Beləliklə, qanun Azərbaycanın bütün beynəlxalq öhdəliklərinə, o cümlədən Avropa İnsan Haqları Konvensiyası ilə bağlı öhdəliklərinə uyğundur. Bundan başqa, yeni qanun layihəsi inklüzivlik və şəffaflıq şəraitində hazırlanıb.

800-dən çox jurnalist və ekspert qanunu Milli Məclisdə baxılmazdan əvvəl müzakirə etmək imkanı əldə edib. Həmçinin, parlament səviyyəsində çoxsaylı ekspertlərin, KİV nümayəndələrinin və vətəndaş cəmiyyətinin iştirakı ilə bir neçə dəfə ictimai dinləmələr təşkil olunub.

Məktubda vurğulanır ki, "Media haqqında" qanunun müasir reallıqlara uyğun olduğu və KİV-in fəaliyyət sahəsini genişləndirəcəyi barədə heç kimdə şübhə olmamalıdır.

"Qanun media subyektlərinin hüquqlarını, o cümlədən informasiya və kommunikasiya texnologiyalarının inkişafından meydana çıxan hüquqlarını qoruyacaq, KİV-in azadlığını və fikir azadlığını, eləcə də məlumatı axtarmaq, əldə etmək və yaymaq azadlığını təmin edəcək", - məktubda deyilir.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Azərbaycanda vətəndaş məmnunluğunun təmini

Təhlil

***Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və sosial sahədə ildən-ilə geniş miqyas alan islahatlar, rifah halının yaxşılaşdırılması üçün atılan mühüm addımlar, əldə olunan böyük sosial uğurlar da bunu bir daha təsdiq edir. Ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində 2021-ci il də uğurlu islahatlar ili olub.***



Hafta.az xəbər verir ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqları əsasında il ərzində sosial islahatlar proqramı davam etdirilib, sosial müdafiə və aktiv məşğulluq proqramlarının icrası və daha da genişləndirilməsi təmin edilib. Həssas qrupların sosial təminatı və sosial ödənişlərin artırılması, sosial sahədə xidmətlərin vahid mərkəzdən şəffaf, operativ və əlçatan şəkildə təşkili və digər müvafiq fəaliyyət sahələrində ardıcıl və məqsədəuyğun işlər görülüb.

Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı:

### Ötən il bu kateqoriyadan olanlara 3 min mənzil verilib

**Şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir.**

Bu istiqamətdə ölkəmizdə icra olunan mühüm sosial proqramlardan biri olan şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı proqramı Prezident İlham Əliyevin tapşırığına əsasən ildən-ilə genişlənir. Qeyd edək ki, 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib. Dövlətimizin başçısının 2021-ci il 25 yanvar tarixli Sərəncamı ilə bu kateqoriyalardan olanlara 2021-2025-ci illərdə 11 min mənzil və ya fərdi evin verilməsinin nəzərdə tutulması proqramın daha da genişlənməsinə imkan verdi. Bunun nəticəsi olaraq, 2021-ci ildə üç il əvvələ nisbətən 5 dəfə çox olmaqla 3 min mənzil şəhid ailələrinə və müharibə əlillərinə verilməsi proqramı icra olundu. Beləliklə, ümumilikdə ötən dövrdə 12300 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib.

Eyni zamanda, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri uğurla davam edir. 2021-ci ildə daha 164 nəfər müharibə əlili minik avtomobili ilə təmin edilib və bu günədək 7400 müharibə əlilinə avtomobil verilib.

### Sosial sahədə inqilabi islahatlar ötən il də davam etdirilib

**Son illərdə sosial sahədə inqilabi islahatlar sosial ödənişlərin ciddi şəkildə artırılmasına imkan verib. 2019-cu ildə əməkhaqları və digər sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə daha çox artıb, yeni sosial təminat növləri, təqaüdlər, müavinətlər təsis olunub.** 2019-cu ilin sosial ödəniş artımları üçün dövlət büdcəsindən illik əlavə vəsait olaraq 3 milyard manat ayrılmışdı. 2020-2021-ci illər də yeni sosial islahatlar mərhələsi olub.

COVID-19 pandemiyasının məşğulluğa və rifaha mənfi təsirlərinin qarşısının alınması üçün sosial dəstək proqramları icra olundu. Zəfərlə başa vurduğumuz 44 günlük Vətən müharibəsindən sonra - postmüharibə dövründə şəhid ailələrinin, müharibə əlillərinin təqaüdlərində ciddi, orta hesabla 60 faiz artımlar edildi, yeni təqaüd növləri təsis olundu.

Əməkhaqqında ciddi artımlara uyğun olaraq 2020-ci ilin əvvəlindən pensiyalar indeksləşdirilərək 16,6 faiz, 2021-ci ilin əvvəlindən 11,4 faiz artırıldı və bu artımlar 1 milyon 100 min pensiyaçını əhatə etdi. Ümumilikdə, 2018-2021-ci illərdə sosial təminat növləri, yəni pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə illik xərclər 2,4 milyard manat və ya 60 faiz artaraq 6,4 milyard manata çatıb. Qeyd olunan dövrdə, yəni 2018-2021-ci illərdə orta aylıq əməkhaqqında 37 faiz, median əməkhaqqı 74 faiz, əmək müqavilələrinin sayı 30 faiz və ya 400 minə yaxın artıb. Əməkhaqqı fondunda həmin dövrdə 92 faiz, ötən il isə 6,4 faiz artım baş verib. Sosial təminat sisteminin mühüm komponenti olan pensiyalarda artım 2021-ci ildə də davam etdi: ilin əvvəlindən pensiyaların sığorta hissəsi 11,4 faiz indeksasiya edilərək artırılıb. 2021-ci ildə pensiyaların orta aylıq məbləği 9 faiz artaraq 331 manata, yaşa görə pensiyaların orta aylıq məbləği 8 faiz artaraq 358 manata çatıb. Ümumilikdə isə son üç ildə pensiyaların orta aylıq məbləği 60 faiz artıb.

Prezident İlham Əliyevin 2021-ci il 16 oktyabr tarixli "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı sosial islahatların uğurla davam etdirilməsinə imkan yaratdı. Bu əsasda Prezident İlham Əliyevin dekabr ayında imzaladığı yeni fərman və sərəncamlarla ölkəmizdə sosial ödənişlərin artırılması istiqamətində islahatların növbəti mərhələsi reallaşdı. İllik əlavə 1,5 milyard manat vəsaiti nəzərdə tutan yeni islahatlar paketi 2,1 milyon insanı əhatə edir. Yeni islahat paketi çərçivəsində minimum aylıq əməkhaqqı 20 faiz artaraq 250 manatdan 300 manata çatıb, üç il əvvələ (130 manat) nisbətən minimum aylıq əməkhaqqı 2,3 dəfə artıb. Həmçinin müəllimlərin və digər bir çox təşkilatlarda işləyənlərin maaşları 20-40 faiz aralığında artırılıb.

Eyni zamanda, əlilliyi olan şəxslərin müavinətləri I dərəcə üzrə 150 manatdan 220 manata, II dərəcə üzrə 130 manatdan 180 manata, III dərəcə üzrə 110 manatdan 120 manata çatdırılıb. Əlilliyi olan şəxslərin müavinətləri üç il əvvələ nisbətən I dərəcə üzrə 2,7 dəfə, II dərəcə üzrə 3 dəfə, III dərəcə üzrə 2,3 dəfə artıb.

Sağlamlıq imkanları məhdud uşaqlara müavinət 150 manatdan 200 manata, onlara qulluğa görə təqaüd 50 manatdan 80 manata çatdırılıb. Ümumilikdə onlara aylıq sosial ödəniş üç il əvvələ (82 manat) nisbətən 3,4 dəfə artıb.

I dərəcə əlilliyi olanlara qulluğa görə 2019-cu ildə təsis olunan təqaüd də 50 manatdan 80 manata çatdırılıb. Həmçinin yaşa görə müavinət üç il əvvələ (73 manat) nisbətən 2,5 dəfə artırılaraq 130 manatdan 180 manata çatdırılıb və hazırda pensiyaçılar üçün yaşayış minimumunu (176 manat) üstələyir. Ailə başçısını itirməyə görə müavinət 80 manatdan 100 manata çatdırılıb və 3 il əvvələ (68 manat) nisbətən 47 faiz artıb.

Müddətli hərbi xidmətdə olanların hər uşağına görə müavinət 100 manatdan 120 manata çatdırılıb və üç il əvvələ (68 manat) nisbətən 76,5 faiz artıb. Uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət 100 manatdan 120 manata çatdırılıb və üç il əvvələ (61 manat) nisbətən təqribən 2 dəfə artıb. Beşdən çox uşağı olan qadınlara (hər uşağa görə) müavinət 55 manatdan 70 manata çatdırılıb və üç il əvvələ (33 manat) nisbətən 2,1 dəfə artıb. Aztəminatlı (ünvanlı sosial yardım alan) ailələrdəki 1 yaşadək uşaqlara aylıq müavinət 55 manatdan 70 manata çatdırılıb, üç il əvvələ (45 manat) nisbətən bu müavinətdə 55,6 faiz artım baş verib.

Övladlığa götürülən uşağa müavinət 2021-ci ilin əvvəlindən təsis olunub və 2022-ci ilin əvvəlindən 25 faiz artırılaraq hər uşağa görə 160 manatdan 200 manata, övladlığa götürülən sağlamlıq imkanları məhdud uşağa görə isə 480 manatdan 600 manata çatdırılıb. Uşağın anadan olmasına görə birdəfəlik müavinət 200 manatdan 300 manata çatdırılıb ki bu da üç il əvvələ (109 manat) nisbətən 2,8 dəfə çoxdur. Dəfn üçün birdəfəlik müavinət 300-dən 350 manata çatdırılıb, üç il əvvələ (146 manat) nisbətən bu müavinətdə 2,4 dəfə artım olub.

İşləməyən pensiyaçı elmlər və fəlsəfə doktorları üçün təqaüd 2021-ci ilin əvvəlindən təsis olunub: Elmlər doktorları üçün 200 manatdan 300 manata (50 faiz artım), fəlsəfə doktorları üçün 120 manatdan 200 manata çatdırılıb (67 faiz artım). "Xalq" fəxri adı üçün 150 manatdan 180 manata (20 faiz artım), "Əməkdar" fəxri adı üçün 100 manatdan 120 manata (20 faiz artım) çatdırılıb.

Əməkhaqqı və digər sosial ödənişlərin artımı üçün 2019-cu ildəki islahatlar üzrə illik əlavə 4 milyard manat, 2020-ci ildəki islahatlar üzrə illik əlavə 600 milyon manat, 2022-ci ildə isə yeni islahatlar üzrə illik əlavə 1,5 milyard manat, ümumilikdə son üç ildə əməkhaqqı və digər sosial ödənişlərin artırılması üçün yalnız dövlət vəsaitləri hesabına əlavə olaraq illik 6 milyard manat ayrılıb.

### 2021-ci ildə DOST mərkəzlərində 410 mindən çox şəxsə xidmət göstərilib

**Vətəndaş maraqlarına xidmət edən, onun müasir sosial trendlərə çevik uyğunlaşmasına hesablanan şəffaflıq, sosial ədalət və yeni dövrün çağırışlarından irəli gələrək xidmət sektorunda qabaqcıl innovasiyaların tətbiqi Prezident İlham Əliyevin sosial siyasət fəlsəfəsinin ana xəttini təşkil edir və əhali tərəfindən rəğbətlə qarşılanır.**

Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Agentliyi dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunmasını təmin edir. Bu gün artıq beş DOST mərkəzi fəaliyyət göstərir. 2021-ci ildə bu mərkəzlərdə 410 min 575, ümumilikdə ötən dövrdə isə 651 min 155 vətəndaşa xidmət göstərilib. DOST mərkəzlərində göstərilən xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 98,2 faizdir. Bütün Bakı şəhəri və Abşeron rayonu DOST şəbəkəsi ilə əhatə olunub. Bakıdakı DOST mərkəzlərinə müraciət üçün qeydiyyat prinsipi də artıq ötən il aradan qaldırılıb, paytaxtın hansı rayonunda qeydiyyatda olmasından asılı olmayaraq Bakı sakinləri paytaxtdakı istənilən DOST mərkəzinə müraciət edə bilər.

2021-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 77 min 640 nəfər işsiz və işaxtaran şəxs işlə təmin edilib. 16 min 232 şəxs isə özünüməşğulluq proqramına cəlb olunmaqla, onların seçdikləri biznes istiqamətləri üzrə aktivlərlə təminatı işləri aparılıb. Bu da proqramın icrasına başlandığı 2017-ci ilə nisbətən 13,8 dəfə çoxdur.

Həmçinin Nazirlik və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsi iştirakçılarının aktivlərlə təminatına da artıq başlanıb. Bu layihə özünüməşğulluq proqramının daha da genişlənməsinə mühüm dəstək olaraq, 22 min işsiz şəxsin özünüməşğulluq formasında kiçik biznes qurmasına dəstək olacaq. 2021-ci ildə Dövlət Məşğulluq Agentliyi tərəfindən əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına 491 nəfər, peşə hazırlığı kurslarına 988 nəfər, peşəyönümü məsləhət xidmətlərinə 1886 nəfər cəlb olunub. 3734 nəfərə isə işsizlikdən sığorta ödənişi verilib.

Əlilliyin qiymətləndirilməsi, əlilliyi olan şəxslərin reabilitasiya xidmətləri ilə təminatı sahəsində də 2021-ci ildə mühüm işlər görülüb, il ərzində 62 minə yaxın şəxsə əlillik təyin edilib ki, bu da əvvəlki ilə nisbətən 2,2 dəfə çoxdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 2021-ci il ərzində 58-i qız, 56-sı oğlan olmaqla 114 uşaq övladlığa verilib. Ötən il reinteqrasiya tədbirləri də davam etdirilib və nəticədə son bir ildə 89 uşağın dövlət uşaq müəssisələrindən ailələrinə qayıdışına nail olunub.

Dövlət başçısının 5 sentyabr 2018-ci il tarixli Fərmanı ilə yaradılan "e-sosial.az" portalına 2021-ci ildə 10 milyon, nazirliyin e-xidmətlərinə 15 milyon 212 min müraciət qeydə alınıb. Eyni zamanda, ötən il 22,6 min pensiya, 120 min müavinət və təqaüd təyinatı e-qaydada həyata keçirilib, 153 min fərdi hesab e-qaydada açılıb. Son üç ildə Nazirliyin 30-dək e-arayış xidmətli yaradılıb ki, ötən il həmin xidmətlər vasitəsilə 570 minə yaxın e-arayış verilib. Hazırda Nazirliyin e-sistemlərinin 31 qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir və həmin qurumlar tərəfindən keçən il Nazirliyin informasiya bazalarına sorğu sayı 139 milyon olub.

### Genişmiqyaslı sosial dəstək tədbirləri uğurla icra edilir

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi Vətən müharibəsindən sonrakı dövrdə dövlətimizin başçısının tapşırığına əsasən genişmiqyaslı sosial dəstək tədbirləri uğurla icra edilir.**

Bu istiqamətdə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri olan 7942 şəxsə 15841 sosial ödəniş (Prezidentin təqaüdü, sosial müavinət, pensiya) təyin olunub, həmçinin 2515 müharibə iştirakçısına əlillik və sosial ödənişlərin təyinatı həyata keçirilib. Şəhid ailələri, müharibə əlilləri üçün sosial ödənişlərin məbləği əhəmiyyətli dərəcədə artırılıb.

Şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib. Şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər daxil olmaqla 10 minədək şəxsin məşğulluğuna dəstək göstərilib, o cümlədən 6 minədək şəxs özünüməşğulluq proqramına cəlb edilib, 4 minədək şəxs işlə təmin olunub. 2021-ci ilin iyun ayında başlanan "Məşğulluq marafonu"na 607 işəgötürən qoşularaq 3971 vakansiya təqdim edib.

Həmin vakansiyalar üzrə artıq 1500-ə yaxın şəhid ailəsi üzvü və müharibə iştirakçısı işlə təmin olunub. 5 min nəfərlə psixokorreksiya işləri aparılıb, reabilitasiya müəssisələrində 1300 nəfərə reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib. 184 hərbçi yüksək texnologiyalı müasir 4-cü nəsil 193 ədəd protezlə, əksəriyyəti müharibə əlilləri olan 955 nəfər mühərrikli təkərli oturacaqla, 1197 nəfər 12948 reabilitasiya vasitəsilə təmin edilib.

Prezident İlham Əliyevin 2021-ci il 25 iyun tarixli Fərmanı ilə vahid əlaqələndirmə mərkəzləri yaradılıb. Vahid əlaqələndirmə mərkəzlərində ötən dövrdə şəhid ailələri üzvləri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 11 min şəxsə xidmət göstərilib. Hazırda Bakı şəhərindəki və Abşeron rayonundakı DOST mərkəzlərində, həmçinin Gəncə şəhərində, Masallı və Ucar rayonlarında regional vahid əlaqələndirmə mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlərdə qeyd olunan kateqoriyalara aid şəxslərə 39 qurum, 6 mərkəzi (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Dövlət Sığorta Kommersiya Şirkəti) və 33 yeri icra hakimiyyəti orqanı tərəfindən 26 istiqamətdə xidmətlər "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğu prinsipi əsasında təqdim edilir. Yaxın günlərdə digər regionlarda da vahid əlaqələndirmə mərkəzlərinin fəaliyyətə başlaması üçün hazırlıq işləri aparılır. Ümumilikdə, postmüharibə dövründə hazırda da davam edən sosial dəstək tədbirləri bu günədək şəhid ailələri üzvləri, müharibə iştirakçıları və erməni terrorundan zərər çəkənlərdən ibarət 45 min şəxsi əhatə edib, onlara 50 min xidmət göstərilib.

Görülən işlər bir daha onu göstərir ki, dünyada pandemiyanın davam etməsinə və iqtisadi-maliyyə çətinliklərinin olmasına baxmayaraq, Azərbaycanda vətəndaş rifahının və məmnunluğunun təminatı, eyni zamanda, şəhid ailələrinə və müharibə əlillərinə diqqət dövlət siyasətinin əsas prioritetlərindəndir.

## Dövlət siyasətinin prioritetlərindən biridir

# Dövlət Gömrük Komitəsinin 30 yaşı tamam olur

## Yubiley

***Yanvarın 30-u Azərbaycan Respublikası gömrük orqanlarının yaradılmasının 30-cu ildönümü və gömrük əməkdaşlarının peşə bayramıdır. Xatırladaq ki, Dövlət Gömrük Komitəsi (DGK) ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra 1992-ci ilin yanvar ayının 30-da yaradılıb. Gömrük işinin təkmilləşdirilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi, habelə uğurlu kadrların yetişdirilməsi ümumilli lider Heydər Əliyevin adı ilə bağlıdır.***




### Astara Sərhəd Gömrük Keçid Məntəqəsi

Bu həftə Hafta.az olaraq Dövlət Gömrük Komitəsi və Medianın İnkişafı Agentliyinin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün "Gömrük sistemində islahatlar: nəticələr, perspektivlər" mövzusunda Lənkəran şəhərində təşkil etdikləri ikigünlük təlimdə iştirak etdik.

Mediatur çərçivəsində Astara Sərhəd Gömrük Keçid Məntəqəsi ilə əyani tanış olmaq imkanı qazandıq. Gömrük postunda bizi DGK Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin rəis müavini Azər Abasov müşayiət etdi. O, burada yaradılmış şərait, həmçinin gömrük işinin təşkilindəki yeniliklər haqqında bizləri bilgiləndirdi.



İlk tanışlığımız sərhədin başladığı nöqtə - İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasındakı sərhəd-buraxılış məntəqəsi ilə oldu. Əsas gömrük yoxlanışı buradan başlayır. Yollara quraşdırılmış xüsusi cihazlar sayəsində gömrük ərazisinə girən nəqliyyat vasitələrinin giriş-çıxışı qeydə alınır. Toplanan məlumatlarda nəqliyyat vasitəsinin gömrük ərazisinə daxil olduğu, qeydiyyat prosesi üçün sərf etdiyi və gömrük zonasını tərk etdiyi vaxt göstərilərək avtomatlaşdırılmış sistemdə qeyd olunur. Burada əsas məqsəd gömrükdə nəqliyyat vasitələrinin sürətli keçidini təmin etməkdən ibarətdir.

Gömrüyə daxil olan nəqliyyatın ölçülərini və çəkisini hesablamaq üçün cihazlar da quraşdırılıb. Rəis müavininin sözlərinə görə, hazırda postda 2 tərəzi var. Onlardan biri oxlara düşən yükə görə çəkini təyin edir, digəri isə "qapan tərəzi"dir. Nəqliyyat vasitələrinin çəkiləri haqqında məlumatlar da digərlərində olduğu kimi avtomatlaşdırılmış idarəetmə sisteminə ötürülür.

Növbəti mərhələ tərəzidən keçən nəqliyyat vasitəsinin qeydiyyatı prosesidir. Bu zaman sürücü avtomobildən düşüb, müvafiq sənədləri gömrük əməkdaşlarına təqdim edir. Paralel olaraq maşınlara gömrükçülər tərəfindən fiziki baxış keçirilir. Yoxlama bitdikdən sonra gömrükçü nəqliyyat vasitəsinin fiziki yoxlanışı barədə öhtəlik götürür və bu məlumat da sistemə ötürülür. Proses zamanı hər hansı problem yaranarsa maşınlar ölkəyə buraxılmır.

Sənədlərin təqdim olunduğu hissədə 10-a yaxın gömrük əməkdaşı sürücülərə xidmət göstərir. İşlərin daha da sadələşdirilməsi məqsədilə indi əvvəlki illərdən fərqli olaraq malın qeydiyyatı, icazə blankı, yol vergiləri, sığorta, ödənişlər və s xidmətlər ayrı-ayrı pəncərələrdən keçmir. "Bir inspektor-bir nəqliyyat vasitəsi" layihəsi tətbiq olunduqdan sonra bütün pəncərələr eyni zamanda fəaliyyət göstərir və hər biri bir nəqliyyat vasitəsinin qeydiyyatını həyata keçirir. Digər yenilik isə rüsumlarla bağlıdır. Keçmişdə sürücülərin ödədiyi rüsumları gömrük əməkdaşı qəbul edirdisə, daha bu işlə məntəqədə yaradılmış "Azərpoçt" MMC-nin əməkdaşları məşğul olurlar. Beləliklə baş verə biləcək xoşagəlməz halların qarşısı alınmış olur. Ardınca avtonəqliyyat vasitələri nəhəng skaner qurğusunda yoxlanışdan keçir. Təbii ki, bu zaman yük maşınlarının içindəki malların növü nəzərə alınır. Skanerə gedə biləcək avtomobillər qurğudan keçdikdən sonra proses tamamlanmış olur.

Bir məqamı da diqqətinizə çatdıraq ki, gömrükdə şübhəli nəqliyyat vasitələrinin axtarışına kinoloji itlər də cəlb olunur. Proses haqqında məlumatı kinoloqla apardığımız söhbət zamanı əldə etdik. Kinoloq bildirdi ki, itlər sayəsində bu günə qədər xeyli miqdarda narkotik vasitə aşkar edilib. Həmçinin bizim kinoloji mərkəzin itləri dəfələrlə xarici ölkələrdə Azərbaycanı təmsil edib və birinci yerə çıxıb. Elə "Holland afçarkası" Tvina da onlardan biridir. Gömrükçü dostumuz Rusiyada keçirilən yarışda qalib olub. Təxminən, birsaatlıq gəzintinin ardından Astara Sərhəd Gömrük Keçid Məntəqəsi və burada gömrük işinin təşkili ilə əyani tanışlığımız başa çatdı. İndi isə gəlin görək, ötən il Azərbaycan Dövlət Gömrük Komitəsinin fəaliyyəti nə ilə yadda qalıb? DGK son bir ildə hansı işləri görüb?

### Gömrük ödənişlərinin toplanması

2021-ci ildə Dövlət Gömrük Komitəsi 4,3 milyard manatdan çox vəsaiti dövlət büdcəsinə köçürməklə, proqnoza 111,29 faiz əməl etmişdir. Nəzərdə tutulan proqnozdan 440,37 milyon manat artıq toplanılıb.

### 2017-21-ci illər üzrə hüquqpozmaların sayı

2021-ci il ərzində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən əməliyyat-axtarış və hüquq-mühafizə fəaliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 17144 hüquqpozma faktı aşkar edilmişdir. Son beş ilə nəzər salsaq pandemiya şəraitinə baxmayaraq hüquqpozmaların sayında artım müşahidə olunur.

### Hüquqpozmaların növ tərkibi

2021-ci ildə bu hüquqpozmaların içərisində cinayətlərin xüsusi çəkisinin azalmasının şahidi oluruq. Əvvəllər bəzi illərdə bu 8% təşkil edirdisə 2021-ci ildə cəmi 2,4 faiz təşkil etmişdir.

### Aşkar edilmiş cinayətlərin əsas növləri

İl ərzində aşkar edilmiş 418 cinayət xarakterli faktın 101-i qaçaqmalçılıq (qaçaqmalçılıq əşyalarının dəyəri 6,3 milyon manat), 26-sı gömrük ödənişlərinin ödənilməsindən yayınma, 21-i aksiz markasız idxal (425 min manatlıq mal), 191-i 252,2 milyon manat valyuta vəsaitlərini xaricdən qaytarmama, 79-u digər əməllərlə əlaqədar olmuşdur. Bu əməllərin törədilməsində şübhəli bilinən 427 nəfərin (333 Azərbaycan vətəndaşı, 94 əcnəbi) barəsində müvafiq tədbirlər görülmüşdür.

### 2021 - narkoqaçaqmalçılığın nisbəti

2021-ci ildə qaşaqmalçılıq cinayətlərinin 69 faizini narkoqaçaqmalçılıq təşkil etmiş, narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 56 nəfər: 55 kişi və 1 qadın olmaqla 22 nəfər Azərbaycan vətəndaşı, 34 nəfər əcnəbi (14 İran, 12 Türkiyə, 6 Rusiya, 1 Gürcüstan və 1 Ukrayna vətəndaşı) barəsində müvafiq tədbirlər görülmüş, 3 halda bu əməlləri törədən cinayətkar dəstə ifşa edilmişdir.

### Narkocinayətlərin sayı

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli 1334 saylı Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək gömrük orqanları tərəfindən görülmüş qətiyyətli tədbirlər nəticəsində 2021-ci il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 55 fakt aşkar olunmuşdur.




COVID-19 pandemiyası ilə əlaqədar sərnişinlərin gediş-gəlişinə tətbiq olunan məhdudiyyətlər səbəbindən son 2 ildə faktların sayında ciddi azalma müşahidə olunur. 2021-ci ildə götürülmüş narkotiklərin içərisində daha ağır və təhlükəli narkotiklər olan heroin və metamfetaminin xüsusi çəkisinin kəskin artması ciddi narahatçılıq doğurur. Belə ki, 622 kq 75 qramı maye halında olmaqla 2 ton 106 kq 134 qram heroin (2020-ci illə müqayisədə 47 % çox), 194 kq 122 qram metamfetamin (2020-ci illə müqayisədə 30 dəfə çox) tutulmuşdur ki, bu da ümumi götürülmüş narkotiklərin 75%-dən çoxunu təşkil edir. Bundan əlavə 2021-ci ildə 698 kq 247 qram tiryək, 44 kq 672 qram həşiş və digər maddələr də qanunsuz dövriyyədən çıxarılmışdır.

### Spirtli içkilər

2021-ci ildə 96 min 400 litrdən çox spirtli içki ilə əlaqədar yol verilmiş hüquqpozmalar üzrə iş açılmış, 310 ədəd saxta və saxta aksiz markası ilə markalanmış müxtəlif markalı spirtli içkilər qanunsuz dövriyyədən götürülmüşdür.

### Tütün məmulatları

2021-ci il ərzində aksiz markasız və ya digər qanunsuz yollarla ölkəyə gətirilməsinə cəhd göstərilən 310 min manat dəyərində 1 milyon 780 min ədəddən çox xaricdə istehsal olunan siqaretlər, eləcə də 1840 ədəd istifadə üçün yararsız, saxta və keyfiyyətsiz siqaretlər tutlmuşdur.

### Valyuta və valyuta sərvətləri

«Valyuta tənzimi haqqında» Qanuna və digər qanunvericilik aktlarına əsasən gömrük orqanları valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 137 910 ABŞ dolları, 3 348 000 rus rublu, 41 550 avro, 6820 gürcü larisi, 50300 saxta ABŞ dolları, 2 milyon 713 min 831 manat dəyərində 7328 ədəd qızıl zinət əşyaları və külçələr, 23 378 manat dəyərində 428 ədəd gümüşdən hazırlanmış məişət və zinət əşyaları, 1 335 135 manat dəyərində 11 692 karat qiymətli daşlar və s. aşkar olunmuşdur.

### Pirotexniki vasitələr

Heç bir təhlükəsizlik tələblərinə cavab verməyən 965 465 manat dəyərində 274 min ədəd pirotexniki məmulatların qanunsuz ölkəyə gətirilməsinin qarşısı alınmışdır.

### Mobil telefonlar və elektronik əşyalar

2021-ci ildə 965 min 465 manat dəyərində 1504 ədəd mobil telefon, 6464 ədəd mobil telefonların aksesuarları, 263257 manat dəyərində məişət texnikası götürülmüşdür.

### Dərman vasitələri

Son illər dərman vasitələrinin qanunsuz yollarla ölkəyə gətirilməsi cəhdləri intensivləşmişdir. 2021-ci ildə gömrük orqanları tərəfindən 101 hüquqpozma faktı üzrə 749 435 manat dəyərində dərman vasitələrinin, 255 582 manat dəyərində qida əlavələrinin, 40472 manat dəyərində tibb ləvazimatlarının qanunsuz idxalının qarşısı alınmışdır.

2019-2021-ci illər ərzində ümumilikdə 247 hüquqpozma faktı (84-ü cinayət xarakterli fakt, 163-ü isə inzibati xəta faktları) üzrə 1milyon 813 min qutu, 113 min həb, 41 min konvolyut, 5348 flakon, eləcə də istifadəyə yararsız 100 həb dərman vasitəsi gömrük orqanları tərəfindən aşkar edilərək götürülmüşdür.

***P.S. Sonda isə "Həftə içi" qəzeti olaraq bütün gömrükçüləri təbrik edir, onlara peşə fəaliyyətlərində uğurlar arzu edirik. Yolunuz aydın olsun!***

***✍ Banu***
***Fotolar: Fariz Faiqoğlu***

## Müzakirə



***Ermənistan Prezidenti Armen Sarkisyanın gözlənilməz istefa qərarı həftənin başlıca müzakirə mövzularından biri oldu. Maraqlıdır, Armen Sarkisyan vəzifəsindən niyə və kimin istəyi ilə istefa verib? Gözləntilər nədir? Politoloqlar hafta.az-a bu "gözlənilməz qaçışın" səbəblərindən danışdılar:***

# Ermənistan prezidentinin "gözlənilməz qaçışı"

■ **Elxan Şahinoğlu, politoloq:**

Ermənistan Prezidenti Armen Sarkisyanın istefa səbəblərindən biri Ermənistan üçün son il ərzində müsbətə doğru heç nəyin dəyişməməsidir. Bu isə o deməkdir ki, Armen Sarkisyan bir il əvvəlki kimi düşünür, ölkəsi üçün perspektiv görmür. Sarkisyan bir il əvvəlki açıqlamasında ölkəsinin çoxvektorlu böhran içərisində olduğunu izah edərkən bugünkü istefasının səbəblərini açıqlayıb. Armen Sarkisyan belə izah ediridi: "Dövlət aparatı şok vəziyyətindədir, müharibəsonrası durum ağırdır, pandemiya ilə mübarizə müsbət nəticə vermir. Dağlıq Qarabağın əksər ərazisini və minlərlə gəncimizi itirdik. Ermənistanda Dağlıq Qarabağdan olan qaçqınların çoxsaylı sosial problemləri var və bu da ciddi böhran yaradıb. Minlərlə Ermənistan vətəndaşı Rusiya və Amerikaya köçmək barədə düşünür, bilet almağa çalışırlar. Ermənistandan köç böhranlı miqyas ala bilər".

*"Bu o deməkdir ki, Armen Sarkisyan bir il əvvəlki kimi düşünür, ölkəsi üçün perspektiv görmür*

Armen Sarkisyanın Böyük Britaniya ilə sıx bağlılığı var, kapitalı da bu ölkədədir, həmçinin bu ölkənin pasportuna sahibdir. Ona görə də Sarkisyan böyük ehtimalla digər imkanlı ermənilər kimi, ölkəsini tərk edib Londondakı qazanc gətirən işlərinə qayıdacaq.

■ **İlyas Hüseynov, politoloq:**

Armen Sarkisyan ağıllı, nüfuzlu və təhlükəli siyasətçidir. Onun Böyük Britaniyada, Vatikanda, ABŞ-da və xüsusilə də ərəb dünyasında çox geniş əlaqələri vardır, tez-tez BƏƏ-yə rəsmi səfərlərə gedir. Düzdür, onun orada şəxsi biznesi var, lakin eyni zamanda, BƏƏ-nin şeyxi ilə kifayət qədər möhkəm münasibətləri mövcuddur. Onu Serjik Sarkisyan təyin etmişdi. Generalların qiyamı zamanı xüsusi canfəşanlığı sayəsində 1-ci posta öz iddiasını ortaya qoymaqla yanaşı, xalq arasında reytinqə işləyən bəzi addımlar atdı. Sarkisyanı istefaya iki səbəb vadar edə bilər. Birincisi, ola bilər ki, Fransaya meyilli komanda Britaniyaya bağlılığı ilə seçilən təmsilçisini uzaqlaşdırmaq qərarına gəlib; yaxud Armen Sarkisyan xarici dostlarından dəstək alıb, indi Nikol Paşinyanın yerinə iddialı olacaq.

*Fransaya meyilli komanda Britaniyaya bağlılığı ilə seçilən təmsilçisini uzaqlaşdırmaq qərarına gəlib*

Ermənistan Respublikasının Konstitusiyasına əsasən, yeni prezident seçilənə qədər prezidentin səlahiyyətlərini Ermənistan Milli Assambleyasının sədri - Alen Simonyan həyata keçirəcək. Yunanıstanda istirahətləri ilə məşhurlaşan Simoyanın Ermənistanın prezidenti postunda oturması Paşinyanın maraqları daxilindədir. Düşünürəm, Simonyan elə Ermənistanın 5-ci prezidenti olacaq.

■ **Turan Rzayev, politoloq:**

- Sarkisyan özü istefasını onunla əsaslandırdı ki, guya əlində daxili və xarici siyasətə təsir edəcək imkanlar yoxdur. Məsələ ondadır ki, Ermənistan Konstitusiyasında prezidentin səlahiyyətləri açıq-aşkar göstərilir. Hər halda, bunu Armen Sarkisyan özü də bilməmiş deyil. Hesab edirəm, Armen Sarkisyanın vəzifəsindən istefa verməsinin əsas səbəbi birbaşa onun özü ilə bağlıdır. Belə ki, Sarkisyan prezident olanda Ermənistanın Baş naziri Serj Sarkisyan idi. Serj Sarkisyanın Kremlə sadiq olması Armen Sarkisyanı Ermənistan prezidenti olmaqla kifayətləndirirdi. Nikol Paşinyanın gözlənilmədən, özü də inqilabla hakimiyyətə gəlməsi Armen Sarkisyanın hakimiyyət iştahını daha da artırdı. Daha dəqiq desək, Armen Sarkisyan ilk başda Nikol Paşinyanı özü üçün elə də ciddi rəqib görmürdü. Armen Sarkisyan üçün Serj Sarkisyan daha ciddi fiqur idi. Paşinyan isə inqilabla hakimiyyətə gəlmişdi. O, belə hesab edirdi ki, Paşinyanı rahatlıqla hakmiyyətdən uzaqlaşdıra, beləcə prezident səlahiyyətlərini artıraraq hakmiyyəti öz əlinə ala biləcək. Prinsip etibarilə Ermənistanın 44 günlük müharibədə məğlub olması və bu məğlubiyyətdə Paşinyanın əsas günahkar kimi göstərilməsi Sarkisyanın bu ümidlərini artırdı. Son hadisələrdən sonra Sarkisyan da anladı ki, Qərbin əsas fiquru o yox, Paşinyandır. Sarkisyan buna görə də Paşinyanla mənasız mübarizəyə girib həm erməni diasporu ilə münasibtələrini pozmaq, həm də öz nüfuzunu aşağı salmaq istəmir.

*O, hesab edirdi ki, Paşinyanı rahatlıqla hakmiyyətdən uzaqlaşdıra, beləcə prezident səlahiyyətlərini artıraraq hakmiyyəti öz əlinə ala biləcək*

■ **Samir Hümbətov, politoloq:**

Armen Sarkisyan gözlədiyini ala bilmədiyi üçün artıq istefaya getməyə məcbur oldu. O, formal fiqur olaraq qalmaq niyyətində deyildi. Bu istefası ilə həm də Paşinyanı vurmağa çalışırdı. Özünü vurmaqla Paşinyana yeni bir şərait yaratdı.

*Sarkisyanla Paşinyan arasında ciddi hörmət və yaxşı münasibət olmayıb*

Uzun illər Qərblə sıx əməkdaşlığı olmuş, Böyük Britaniyada Ermənistanın səfiri işləmiş Armen Sarkisyan şirniklənərək prezident seçildi. Təbii ki, Qarabağ savaşı, ondan əvvəlki və sonrakı dövrlərdə Sarkisyanla Paşinyan arasında ciddi hörmət və yaxşı münasibət olmayıb.

Armen Sarkisyan gözləyirdi ki, hansısa ciddi təkan olar və ölkədə yeni bir referendum keçirdilməklə ölkə prezident üsul idarəsinə qayıdar. Təbii ki, onun gözləntilərinin bir hissəsi reallığa çevrilməyə başladı. Paşinyan başqa bir məsələ üzərindən referendum keçirməyi planlaşdırır.

Bu, Türkiyə ilə münasibətlərin normallaşması üçün Konstitusiyada bəzi maddələrin dəyişdirilməsi, hətta Türkiyə ilə bağlı bəzi maddələrin oradan çıxarılması ola bilər. Hesab edirəm, Paşinyan öz partiyasının səs çoxluğundan istifadə edərək, özünə yaxın və sadiq qüvvələrin içindən bir nümayəndəni prezident seçilməsinə şərait yaradacaq. Bu da mahiyyət etibarilə Ermənistanda Paşinyan dönəminin uzun müddət davam etməsinə gətirib çıxara bilər.

***✍ Tahirə***

# "Himayədar ailə"nin yeni modeli

## Layihə

***Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyi tərəfindən himayədar ailə qayğı modelinin və ailə bütövlüyünün qorunması məqsədilə tətbiq edilən Sosial-İqtisadi Dəstək xidmətinin Azərbaycanda tətbiqi üçün iki ölkənin səlahiyyətli orqanları fəaliyyətə başlayıb. Hafta.az-ın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Ailə və Sosial Xidmətlər Naziri Derya Yanığa məktub yazıb və əməkdaşlığa dair tələblərin həyata keçirilməsi üçün əməkdaşlıq istəyib. Bununla bağlı iki ölkənin səlahiyyətli orqanlarının keçirdiyi onlayn görüşlərdə iş planı yaradılıb və bu çərçivədə yerində araşdırmalar aparmaq üçün Türkiyəyə səfərlər edilib. İstanbul və Ankarada himayədar ailələri ziyarət edən Azərbaycan rəsmiləri himayədar ailələr və himayədar ailələrdə böyümüş gənclərlə görüşüb.***



Türkiyə mətbuatının yazdığına görə, Azərbaycan dövlət orqanlarına himayədar ailə ilə yanaşı, Ailə və Sosial Xidmətlər Nazirliyi tərəfindən ailə bütövlüyünün qorunması və uşaqların öz ailələri ilə birlikdə böyüməsini təmin etmək məqsədilə həyata keçirilən SED xidməti haqqında ətraflı məlumat verilib. Uşaqlar üçün mütəmadi olaraq SED ödənişləri və xidmətin izlənilməsi barədə məlumat paylaşılıb.

Araşdırmaların nəticələrinə uyğun olaraq 2022-ci il üçün çərçivə planı hazırlanıb. Bu çərçivədə, bu il Türkiyədə qoruyucu ailə xidməti modelinin və SED xidmət modelinin yaradılması üçün Azərbaycan Əmək və Sosial Müdafiə Nazirliyinin uşaqların müdafiəsi sahəsində çalışanlara nəzarət dəstəyi veriləcək. Eyni zamanda, türk mütəxəssislər himayədar ailə ilə bağlı yerində araşdırmalar aparacaq. Azərbaycanda himayədar ailə xidmətinin baza strukturu yaradıldıqdan sonra bu ölkədə çalışan 60 əməkdaş Türkiyədə təcrübəli mütəxəssislər tərəfindən qoruyucu ailə xidmətinin həyata keçirilməsi ilə bağlı 10 günlük təlim keçəcək. Tədqiqatlar çərçivəsində bir il ərzində Azərbaycanda çalışan kadrlara məsləhət dəstəyi verilməsi, uşaqların müdafiəsi sahəsində yeni layihələr həyata keçirərək Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın artırılması hədəflənir.

Qeyd edə ki, Türkiyədə kimsəsiz uşaqların ailələrdə böyüməsinin təmin edilməsi məqsədilə 2018-ci ildə başladılan "Qoruyucu ailə" layihəsinə indiyədək 10 min 105 nəfər müraciət edib.Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğanın himayəsi ilə qardaş ölkənin Ailə və Sosial Xidmətlər Nazirliyi nəzdində başladılan layihə kimsəsiz uşaqların qorunması, onların qoruyucu ailələrdə böyüməsini nəzərdə tutur. Dörd fərqli modeli özündə əks etdirən layihə çərçivəsində bu uşaqlar yaxın qohumları, "Müddətli qoruyucu ailə", "Müvəqqəti qoruyucu ailə" və "Mütəxəssis qoruyucu ailələr" tərəfindən himayəyə götürülürlər. Hər il daha da inkişaf etdirilən layihəyə dəstək verən ailələrə Türkiyə dövləti tərəfindən uşağın ehtiyacları nəzərə alınaraq müəyyən miqdarda dəstək göstərilir.

Bəs görəsən, "Himayədar ailə" modelinin tətbiqi nə dərəcədə effektlidir? Bu sahədə ən yaxşı təcrübə hansı ölkələrdədir? Türkiyədə tətbiq olunan "qoruyucu ailə" modelinin əsas üstünlükləri nədən ibarətdir? .Bu modelin ölkəmizdə tətbiqi valideyn himayəsindən məhrum olmuş uşaqların ailələrə qaytarılması və cəmiyyətə adaptasiya olması prosesinə necə təsir göstərəcək?

> "
> *Bu xidmət hər hansı səbəbdən öz ailəsi ilə qala bilməyən uşaqların könüllü ailələr tərəfindən qayğı və tərbiyəsidir*



**Lamiyə İsazadə,**
"Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin sədri

■ **Mövzu ilə bağlı hafta.az-a fikirlərini bölüşən "Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin sədri Lamiyə İsazadə deyib ki, ölkəmizdə valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində yaşaması dövlət siyasətinin prioritet istiqamətlərindəndir:** "Həmin uşaqların ailə mühitində yaşamasını nəzərdə tutan yeni "Himayədar ailə" qayğı modelinin tətbiqi Azərbaycanda da nəzərdə tutulub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu istiqamətdə müvafiq institusional hazırlıq, qanunvericilik bazasının yaradılması işlərinə də artıq başlanılıb. "Himayədar ailə" modelinin əhəmiyyəti valideyn himayəsindən məhrum olan uşaqların uşaq müəssisələrinə düşməsinin qarşısını almaq və onların ailə mühitində böyüməsinə, tərbiyə almasına şəraitin yaradılmasıdır. Bununla bərabər bu model himayədar ailələrə dəstək verilməsi mexanizmini də özündə ehtiva edir. İstər ölkəmizdə istərsə də digər ölkələrin dövlət müəssisələrindəki hər bir uşağın ailə sevgisinə, ailə qayğısına ehtiyacı var.Bu sahədə ən yaxşı təcrübə Avropa ölkələrini hesab etmək olar. Çünki Avropa ölkələrində bu modelin tətbiqinə uzun illər öncə başlanılıb və indiyə qədər də çox uğurlu nəticələr əldə olunubdur. Onu da qeyd edim ki, bizlərdə "Himayədar ailə" modeli Avropa dövlətlərində "Alternativ qayğı" adlandırılır. Valideyn himayəsindən məhrum olan uşaqlar əvvəlcə himayədar ailəyə yerləşdirilir, bir müddət uşaq həmin ailədə yaşayır. Əgər himayəyə götürən ailə və uşaq tərəfindən heç bir problem yaşanmazsa, bir müddət sonra uşağın qəyyumluğu həmin ailəyə verilir. Alternativ himayənin müxtəlif formaları vardır. Əgər uşağın ailəsi yoxdursa, qohumları ilə də yaşaya bilər, kiçik və ya böyük qruplu evlərdə, kiçik ailəşəkilli evdə, yaxud alternativ ailələrdə yerləşdirilə bilər. "Alternativ qayğı" yəni himayəyə götürmə uşağın yetkinlik yaşına çatmasına, təhsilini bitirənə və ya uşağın həqiqi ailəsinin durumunun yaxşılaşmasına qədər çox uzun illər davam edə bilər".

Bu sahədə Türkiyə təcrübəsinə toxunan həmsöhbətimiz qeyd edib ki, qardaş ölkədə Ailə və Sosial Siyasətlər Nazirliyi və Uşaq Xidmətləri Baş İdarəsi tərəfindən həyata keçirilən "Qoruyucu ailə" modeli xidmət göstərir: "Bu xidmət hər hansı səbəbdən öz ailəsi ilə qala bilməyən uşaqların könüllü ailələr tərəfindən qayğı və tərbiyəsidir. Yəni uşaq öz ailəsi olmasa belə ailə mühitində həyatını davam etdirir. Qoruyucu ailə rolunu üzərinə götürən şəxs, uşağı öz ailəsi kimi sevərək ailə mühitinin çatışmazlığını doldurmağa çalışır. Hər bir kimsəsiz uşaq üçün çox vacib olan qoruyucu ailə uşağın daha yaxşı sosiallaşmasını təmin edir və ailəyə ehtiyacı olan uşaqları cəmiyyətə qazandırır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Türkiyədə qoruyucu ailə olmaq üçün Uşaq Xidmətləri Baş İdarəsi tərəfindən müxtəlif qanun və qaydalar müəyyən edilmişdir. Hansı ki, bu qaydalara əməl etməyən valideynlər himayədar ailə rolunu öz üzərinə götürə bilməzlər. Qoruyucu ailə adı ilə qoyulan və şərtləndirilən bu qanunlar ilk növbədə uşaqların təhlükəsizliyi və imtiyazları əsasında qurulmuşdur. Qanuna əsasən uşağın öz ailəsi qoruyucu ailə olmaq üçün müraciət edə bilməz. Təhsil baxımından isə qoruyucu ailə ən azından orta məktəb məzunu olmalıdır. Əks təqdirdə həmin müraciət edən şəxsə imtina cavabı verilir. Türkiyədə "qoruyucu ailə" modelinin müxtəlif variantları var. Bu, müvəqqəti qoruyucu ailə tətbiqi, qohum və ya yaxın çevrə qoruyucu ailə tətbiqi, müddətli qoruyucu ailə tətbiqi və ixtisaslaşdırılmış qoruyucu ailə tətbiqidir. Müvəqqəti qoruyucu ailə tətbiqi: Bu tip himayədar ailə praktikasının müddəti bir neçə gündür. Vəziyyətdən asılı olaraq ən çoxu 1 aya qədər çəkə bilər.

Qohum və ya yaxın çevrə qoruyucu ailə tətbiqi: Bu tip müraciətdə uşağın öz ailəsi nəzərdə tutulmur. Praktikada uşaqla qan qohumluğu olan və ya çox yaxın mühitdə olan insanlara bu şəkildə himayədar ailə vəzifəsi verilir. Müddətli qoruyucu ailə tətbiqi: Bu üslubda inkişaf etdirilən tətbiqdə uşaqların öz ailələri var, lakin qısa müddət ərzində öz ailələrində qalmaq mümkün deyil. Onlar qısa müddətliyinə başqa ailələrə verilir. Belə uşaqlar üçün hazırlanmış himayədar ailə proqramı ən çox tətbiq olunan proqramdır. İxtisaslaşdırılmış qoruyucu ailə tətbiqi: Bu növ müraciət bir az daha çox təcrübə tələb edən proqramdır. Bu tip müraciətlərə cəlb olunan uşaqlar xüsusi qayğıya ehtiyacı olan uşaqlardır və bununla bağlı himayədar ailə olmaq üçün insanlar bununla bağlı lisenziya almalıdır".

Birlik sədri həmçinin vurğulayıb ki, dövlət müəssisələrindəki valideyn himayəsindən məhrum olan yüzlərlə uşağın eyni vaxtda qayğısına qalmaq, onlara düzgün tərbiyə vermək həddən artıq çətindir: "Hər bir uşaq ailə mühitində böyüyərsə onların qayğısına qalmaq, tərbiyəsi ilə məşğul olmaq, onları doğru yönə istiqamətləndirmək himyədar ailə üçün daha asan olar. Ailə mühitində böyüyən uşaqlar cəmiyyətə düşündüyümüzdən də tez adaptasiya olurlar. Əgər valideyn himayəsindən məhrum olan uşaqlar 17-18 yaşına qədər uşaq evlərində qalsalar, onları cəmiyyətə qazandırmaq ya çox çətin olacaq ya da ümumiyyətlə olmayacaqdır. Ona görə də dövlətimizin inkişafı, rifahı, sağlam gələcəyi naminə hər bir uşağa xüsusi qayğı göstərməyi olduqca zəruri hesab edirəm. İnanıram ki, ölkəmizdə tətbiqi nəzərdə tutulan "Himayədar ailə" qayğı modeli buna imkan yaradacaqdır. Bu modelin tətbiqi uşaqlarımızın normal psixologiyada böyümələrini, onların vətənpərvərlik və milli ruhda tərbiyə olunmalarını, xoşbəxt yaşamalarını, ailə qayğısı ilə əhatə olunmalarını təmin edəcəkdir".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

---

# Daşaltı əməliyyatınadək ermənilər bizdən çox qorxurdu

**"1989-1990-cı illərdə keçmiş Dağlıq Qarabağın yalnız ermənilər yaşayan əsasən 3 kəndinə Ermənistandan hay terrorçuları göndərilirdi. Onlar xaricdə və sovet ordusunda xüsusi təlim keçmişdi. Belə kəndlərdən ikisi Xocalı rayonunun Ballıca və Həsənabad kəndləri, digəri isə Şuşa rayonunun Daşaltı kəndi idi. Həmin kəndlərin yerləşdiyi ərazi relyef baxımından artilleriya üçün əlçatmaz olduğundan erməni yaraqlıları üçün təhlükəsiz sayılırdı.**



Xüsusi təyinatlı erməni terrorçularının məhz həmin kəndlərə yerləşdirlilməsinin əsas səbəblərindən biri bu idi. O yaraqlıların arasında atıcı silahlar, partlayıcılar, terror aktları, diversiya, kəşfiyyat və s. üzrə sağlam, iri gövdəli, idmançı mütəxəssislər var idi".

■ **Bunu hafta.az-a açıqlamasında 30 il öncə Daşaltı əməliyyatının uğursuzluğa düçar olaraq onlarla döyüşçümüzün həlak olması ilə nəticələnməsinin əsas səbəblərindən danışan tanınmış Qarabağ qazisi, peşəkar kəşfiyyatçı polkovnik Azay Kərimiv söyləyib.**

"Daşaltını da Şuşadan topla, "Alazan"la, "Qrad"la vurmaq mümkün deyildi. Həmin kənddə yerləşmiş hay terrorçularının əsas vəzifəsi yaxınlıqdakı Şuşa-Laçın yolu ilə hərəkət edən azərbaycanlı avtomobillərinə, xüsusən günün qaranlıq vaxtlarında atəş açaraq soydaşlarımızı qətlə yetirməklə əhalidə kütləvi xof yaratmaq idi. Eləcə də onlar Şuşa-Laçın arasındakı elektrik xətlərinin dirəklərini partladaraq rayon mərkəzləri və ətraf azərbaycanlı kəndlərinin günlərlə işıqsız qalmağına səbəb olurdular. Bunu birinci dəfədir ki,mediaya açıqlayıram Yadımdadır ki, 1991-ci ilin yayında Şuşa rayon polis şöbəsinin rəis müavini Eldəniz Quliyevin rəhbərliyi ilə rayon polisi Daşaltıda ciddi şəkildə pasport-qeydiyyat yoxlaması apardı. Mən də həmin əməliyyatda post-patrul xidmətinin qərargah rəisi kimi iştirak edirdim. O vaxt biz Ermənistandan gəlmiş, Azərbaycanda, Daşaltı kəndində qeydiyyatı olmayan, eləcə də müxtəlif təxribat və terror aktlarında şübhəli bilinən bütün erməni kişiləri həbs edib Şuşa türməsinə topladıq.

Öncəki söhbətlərimizdən birində dediyim kimi, Qarabağın digər şəhər və kəndlərində həbs edilmiş terrorçular da olduğu üçün Şuşa türməsi doldu və biz qalan terrorçuları, səhv etmirəmsə, musiqi texnikumunun zirzəmisində düzəltdiyimiz məkana yerləşdirdik. Təəssüf ki, cəmi bir neçə ay sonra, yəni 1991-ci ilin sonunadək həmin hay terrorçuları Moskvanın təzyiqi və Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi səbəbindən hissə-hissə Xankəndinə qaytarıldı. Həmin terrorçular arasında hətta Xocavənd rayonunun Qaradağlı kəndinin kənarındakı fermada bütöv bir azərbaycanlı ailəsini güllələyərək yandırmış ermənilər də var idi. O vaxt hadisə yerində olduğum üçün o dəhşətli mənzərə gözümün qarşısındadır. O teraktı törədənlərin cəzasız şəkildə buraxıldığını hər yadıma salanda sarsılıram Halbuki, Respublika Prokurorluğundan gəlmiş istintaq qrupu şəhid Baş Prokuror İsmət Qayıbovun da bilavasitə iştirakıyla digər erməni cinayətləri kimi, bunu edənlərin də günahını təsdiqləmişdi. Qalırdı onların məhkəmədə mühakimə olunaraq həbsə, yaxud o dövrün qanunlarına uyğun olaraq güllələnməyə məhkum edilməsi Və deyərdim ki, Xocalı, Qaradağlı, Meşəli və s. soyqırımları kimi, Daşaltı əməliyyatının faciəvi uğursuzluğunun da əsas səbəblərindən biri və ilkin səbəbi məhz Şuşa türməsinə və digər həbsxanalarımıza yığılmış erməni terrorçularının cəzasız şəkildə buraxılaraq Xankəndindəki separatçı-terrorçu rejimə qaytarılması oldu. Çünki nəticədə həmin hay terrorçuları daha qisasçı duyğularla yenidən silahlanıb bizə qarşı terakt və döyüşlər təşkil etməyə başladılar. Daşaltı əməliyyatının uğursuzluğa düçar olmasının ikinci əsas səbəbi həmin əməliyyatı o dövrdəki komandanlıq tərəfindən səriştəsiz, qeyri-peşəkar şəkildə hazırlanması oldu ki, bu haqda da çox danışılıb. Amma onu da deməliyəm ki, 1992-ci ildəki uğursuz Daşaltı əməliyyatınadək ermənilər bizdən çox qorxurdu. Artıq Xankəndindən də Moskvaya kütləvi teleqramlar gedirdi ki, ya bizim müdafiəmizi təşkil edin, ya da şərait yaradın, biz buradan Ermənistana köçək. Amma Allaha çox şükürlər olsun ki, 28 il sonra olsa da, nəhayət, ordumuz 44 günlük savaşda şəhid və qazilərimizin canı-qanı hesabına Daşaltı kəndini azad etdi və orada şəhid edilmiş onlarla döyüşçümüzün qisası alındı. Və bununla da terrorçu və işğalçı hayların Azərbaycan oğullarından qorxusu yenidən vicdansız ürəklərinə doldu Allah həm son 30-33 ildəki bütün Qarabağ savaşlarımızdakı şəhidlərimizə rəhmət eləsin"- peşəkar döyüşçü polkovnik belə deyib.

> "
> *Həmin uğursuzluğun ilkin səbəbi Şuşa türməsinə yığılmış erməni terrorçularının cəzasız şəkildə buraxılaraq separatçı-terrorçu rejimə qaytarılması oldu*

***✍ Sultan Laçın***

---

## XƏBƏRİNİZ OLSUN...



■ "Dini etiqad azadlığı haqqında" qanuna dəyişikliklər edilməsi təklif edilir. Dini qurumlar ianə edilmiş pul vəsaitlərini nağd və ya bank poçt, plastik kart elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə əldə edə biləcək. Layihəyə təklif edilmiş dəyişikliklər Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin iclasında müzakirə ediləcək.

-----------------------------------

■ Azərbaycanlı məşqçi Elnur Qəmbərov Kanadanın yeniyetmələrdən ibarət futzal millisinin baş məşqçisi təyin edilib. Bu haqda Kanada Futzal Assosiasiyasının Feysbuk səhifəsində məlumat yayılıb. Qeyd edək ki, bir neçə ildir Kanadada yaşayan E.Qəmbərov bir vaxtlar futzal üzrə Azərbaycan millisi və "Araz Naxçıvan" klubunun oyunçusu olub.

-----------------------------------

■ Ermənistanın Baş naziri Nikol Paşinyan COVID-19-a yoluxub. Bu barədə Ermənistan hökumətinin Mətbuat xidməti məlumat yayıb. "Paşinyan koronavirus testindən keçib, nəticəsi müsbət olub. Baş nazir müəyyən olunmuş qaydada özünü təcrid edib, xəstəlik simptomsuz davam edir", - deyə məlumatda bildirilir. Qeyd olunur ki, o, distant rejimdə işləyəcək. Xatırladaq ki, N. Paşinyan 2020-ci ilin iyununda da koronavirusa yoluxmuşdu.

-----------------------------------



■ Ukraynanın eks-prezidenti Petro Poroşenko istintaqa çağırılıb. Dövlət İstintaq Bürosu Poroşenkonun yanvarın 31-də ifadə vermək üçün çağırıldığını elan edib. Dövlətə xəyanətdə ittiham olunan Poroşenko Donbasın separatçıların nəzarəti altında olan hissəsindən daş kömür alınması ilə bağlı açılan cinayət işi çərçivəsində sorğu-sual ediləcək.

-----------------------------------

■ Böyük Britaniyada siyasi sığınacaq istəyən müxalifətçi Ceyhun Zeynalov cinsi təcavüzə görə mühakimə olunub. Bu barədə "Daily Mail" qəzeti yazır. Qeyd olunur ki, C.Zeynalov 2018-ci ilin oktyabrında özünü təqsirli bilməsə də, 2021-ci ilin martında günahını etiraf edib.

-----------------------------------

Koronavirusa yoluxmaların 90 faizindən çoxu "omikron"la əlaqəlidir. Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib. O qeyd edib ki, bir neçə həftə ərzində "omikron" ştammı digər növlərə nisbətən daha çox yayılıb.

-----------------------------------



■ Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Azdram) koronavirusa görə fəaliyyətini müvəqqəti dayandırıb. Teatrdan hafta.az-a verilən məlumata görə, son günlər teatrın əməkdaşları arasında COVİD-19 infeksiyasına yoluxma hallarının artması ilə əlaqədar qabaqlayıcı-profilaktik tədbirlərin görülməsi qərara alınıb.

-----------------------------------

■ Rusiyanın Qara dəniz donanmasının 20-dən çox hərbi gəmisi Qara dənizdə hərbi təlimlərə başlayıb. Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

# Qərb Ukraynanı müharibəyə təhrik edir



**Ünver Sel,**
Krım İnkişaf Fondunun və Krım Tatar Mədəniyyət Dərnəkləri Federasiyasının sədri

***Krımın Rusiya tərəfindən işğal edilməsi bütün bölgədə vəziyyəti korlayıb, hətta az qala üçünü dünya müharibəsi səviyyəsinə gətirib çıxarıb. Rusiya isə deyir ki, Krım mənimdir, vəssalam. Şərqi Ukraynanın da rusların ana vətəni olduğunu iddia edərək, buranı separatçı bölgəyə çevirib. Elə bugünkü Rusiya - Ukrayna müharibəsi təhlükəsi daha çox bu separatçı bölgədən qaynaqlanır. Krıma qayıdaq: krımlı liderlər bu gün əsasən Kiyevdə fəaliyyət göstərirlər. Səbəb də aydındır: Rusiya müstəmləkə siyasətinə qarşı çıxan insanları nəinki qəbul etmir, hətta onları aradan götürməyə çalışır. Yarımadada qalıb çalışanlar da var. Elə bugünkü müsahibimiz olan Krım İnkişaf Fondunun və Krım Tatar Mədəniyyət Dərnəkləri Federasiyasının sədri Ünver Sel ilə Krım tatarlarının vəziyyətindən tutmuş Ukrayna-Rusiya münasibətlərinə, Türkiyənin vasitəçilik təklifindən Azərbaycanın bu prosesdə oynaya biləcəyi roladək - hər şeydən danışdıq. Müsahib nə dedi, nə danışdı, gəlin birlikdə oxuyaq:***

## Müsahib

- Krımda yaşayan tatarlar məsələsində Türkiyə, Rusiya və beynəlxalq ictimaiyyət nəzdində mədəni fəaliyyətlərin idarə olunması, cəmiyyətimizin ehtiyacları nəzərə alınaraq diplomatik təmasların qurulması və tatar xalqının problemlərinin həllinə çalışırıq. Krım tatarları, Sovetler Birliyi dağılandan sonrakı 23 illik Ukrayna dönəmində hər zaman bazarlıq mövzusu olub, tatarların Orta Asiya ölkələrindəki sürgündən geridönüşlərinə maneələr yaradılıb. Tatarların heç vaxt torpaq, dil və idarəetmədə təmsilolunma məsələsi həllini tapmayıb. Krımın təkrar Rusiyaya bağlanmasından sonra, Rusiya Prezidenti Vladimir Putinin verdiyi qərarla bu problemlərin həlli istiqamətində ciddi addımlar atılıb. Yenə də çatışmazlıqların qalmasına rəğmən Krım tatarlarının haqları hüquqi müstəvidə tanınıb. Biz də bütün bunları izləyərək problemlərin çözümünə dəstək verməyə davam edirik.

***- Krımın hazırda öz ərazilərində olmayan, yəni Kiyevdə və sair oturan liderləri ilə təmaslarınız varmı? Krımın Ukraynaya geridönüşü mümkündürmü?***

- Bu yaxınlarda Almaniya Dəniz Qüvvələri Komandanının da bildirdiyi kimi, Krımın Ukraynaya qaytarılması inandırıcı görünmür. Hesab edirəm ki, boş xəyallara qapılaraq, tatar xalqını eynilə 1944-cü ildəki kimi, macəraya sürükləməyin faydası yoxdur. Kiyevə qaçan keçmiş tatar liderlərlə aramızdakı fikir ayrılıqları da məhz budur. Biz tatar xalqının xeyrinə olacaq mövqedə dayanmağı təklif etdik, amma onlar Ukrayna daxilində Qərbin kiçik bir aləti olmağı seçdilər. Bu gün həmin qrupların Kiyevdə və Türkiyədə fəaliyyətlərini, aralarındakı qalmaqalları və mənfəət toqquşmalarını görürük.

***- Bilirsiniz ki, hazırda dünyanın gözü-qulağı Ukraynadadır. Rusiyanın hərbi müstəvidə hücuma keçəcəyi deyilir. Sizcə, Rusiya Ukrayna sərhədlərini keçərək, açıq əməliyyatlara start verəcək, yəni genişmiqyaslı müharibə başlayacaq?***

- Əslində, müharibəyə Qərbin təhrik etdiyini görürük. İngiltərə üzərindən təyyarələr Ukraynaya ağır silahsursat daşıyır. Moskvanın Ukraynaya hər hansı hücum niyyətinin olmamasına dair ən üst səviyyədə açıqlamalar verilməsinə baxmayaraq, ABŞ hökuməti elə hey müharibədən söz açır. Bütün bunları nəzərə alaraq, diplomatiyanın da dövriyyəyə girdiyini düşündükdə, hər hansı müharibənin olmayacağını deyə bilərik. Bu gün Rusiya - Ukrayna münaqişəsi olaraq gördüyümüz bu qalmaqal Moskva ilə Kiyev arasında deyil, ABŞ və Böyük Britaniya ilə Rusiya arasında yaşanır. Ukrayna burada istifadə edilən sadəcə alətdir. Amerikalılarla ingilislərin geosiyasi çıxarları üçün Ukraynadan bu şəkildə istifadə etməsi, öncə Ukrayna xalqına, daha sonra da bütün Şərqi Avropa dövlətlərinə ziyandır. Məncə, Qərbin fitnəsi ilə Ukraynadakı millətçi qruplar eynilə 1941-ci ildəki Barbaros Hərəkatı kimi çılğınlıq içindədirlər. Bu vəziyyətdə "Novorossiya" güclərinin özünümüdafiə haqqı olmalıdır.

***- Prezident Ərdoğanın vasitəçilik istəyi həm Moskva, həm də Kiyev tərəfindən alqışlanıb. Necə bilirsiniz, Prezident Ərdoğan tərəfləri Ankarada və ya başqa bir şəhərdə görüşdürə biləcək? Hətta bir araya gəlsələr belə, arzuladığımız nəticə əldə olunacaq?***

- Türkiyə Qara dəniz, Qafqaz və Suriyada çox vacib mövqeyə sahibdir və bütün bu regionlarda Rusiya ilə ortaq hərbi və diplomatik əməkdaşlıq içindədir. Bu baxımdan Ankaranın dəvəti gərginliyin azalması üçün vacib rol oynaya bilər. Tərəflərin də bu dəvətə müsbət cavab verməleri bölgədə sabitliyin yaranması baxımından vacibdir. Sözünü etdiyimiz bu prosesin müsbət nəticələnəcəyini düşünürəm. Ümumiyyətlə, atılan hər bir diplomatik addım sülhə gedən yolda bir kilometr daşıdır və mütləq təsiri olacaq.

***- Axı Rusiyanın Ukraynadan qəti tələbi nədir, nə istəyir, niyə aqressiv davranır? Sadəcə, Qərbdən üz çevirib Moskvanın yanında olmasınımı istəyir, yoxsa başqa nələrsə var? Yaxşı, Ukrayna Moskvanın istədiyini yerinə yetirsə, Rusiya Krımı və Donbası geri qaytaracaq?***



- Sovetlər Birliyi dağılandan sonra NATO Rusiyaya təhdid yaratmayacağı və Şərqə doğru genişlənməyəcəyinə dair söz vermişdi. Gedişat tam əksinə oldu: ABŞ NATO-nun bayrağı altında Rusiya sərhədlərinə doğru konvensional və nüvə silahlarını topladı. Moskva da eyni millətin qolu olan Ukraynanın öz torpaqlarını Rusiyaya qarşı silahlanmaya meydan etməməsini istəyir. Ukraynada bu mövqeyi dəstəkləyənlərlə Qərb tərəfdarları arasında fikir ayrılığı davam edir. Bu vəziyyətdə isə Rusiya öz soydaşlarını millətçilərdən qorumağa çalışır. Rusiyanın bu şərtlər altında Krımdan və ya Donbasdan vaz keçməsi öz varlığını inkar etməsi demək olardı. Krımın statusuna gəldikdə, rəsmi Moskva bu məsələnin əbədi olaraq müzakirələrə bağlı qalacağını bildirib. Rusiya bu torpaqlardan vaz keçərsə, Qafqazda, Xəzər regionunda, Orta Asiyada, hətta Baltık regionunda da qala bilməz.

***- Ötən günlərdə Azərbaycan Prezidenti İlham Əliyev də Kiyevə səfər etmişdi. Sizcə, bu səfərdə bizə bəlli olmayan bir məqsəd vardı, yəni bu səfəri prezident Əliyevin qardaş dediyi Ərdoğanın vasitəçilik təklifinə dəstək saymaq olar? Bu arada, prezident İlham Əliyevin özünün də tərəflər arasında vasitəçilik etmək istəməsinə dair söz-söhbətlər dolaşırdı...***

- Prezident İlham Əliyev də eynilə cənab Ərdoğan kimi, bölgənin hörmət sahibi liderlərindəndir. O, həm Moskva, həm Kiyev, həm də Ankaranın nəzərində güclü fiqurdur. Prezident İlham Əliyevin səfərini yalnız Rəcəb Tayyib Ərdoğanın təklifi müstəvisində deyil, həm də Vladimir Putinin münasibəti baxımından da müştərək cəhd hesab edə bilərik. Bu səfər, eynilə Qarabağda olduğu kimi, Ərdoğan - Əliyev - Putin təklifi olaraq ortaya çıxmış görünür. Onsuz da prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın səylərinin Minsk Qrupundan daha real nəticələr verdiyi ortadadır.

***- İndi də İstanbulda 3+3 və ya 3+2 formatında görüşlərin keçirilməsi gündəmə gəlib. Bunun Ukrayna ilə bir bağlılığı varmı - təbii ki var. Çünki bu görüşün də məqsədi bölgədə sabitlik və sülhü bərqərar etməkdir. Azərbaycan - Ermənistan probleminin əsas tərəfi olan Rusya həm də Ukrayna ilə münaqişənin baş rolunda çıxış edir. Sizcə Qarabağ münaqişəsinin qəti həlli Ukrayna probleminə də müsbət təsir göstərə bilər?***

- Hər biri fərqli görünsə də, həm Ukraynadakı vəziyyət, həm də Qarabağın Ermənistan tərəfindən işğalı regional sabitliyi pozan məsələlərdir. İllər boyunca Azərbaycan torpaqlarının işğalı məsələsində Qərb Minsk qrupu daxilində baş aldatmaqla məşğul oldu. Nə zaman Azərbaycan, Türkiyə hərəkətə keçdi, bölgə ölkələrinin təklifləri ortaya çıxdı, bax o vaxt Qarabağ məsələsində müsbət inkişaf başladı. Bu mənada Qarabağ münaqişəsinin həlli Ukrayna məsələsinə də müsbət təsirini mütləq göstərəcək. Qərb gücləri yaratdıqları münaqişə vəziyyəti ilə Qafqazda və Qara dənizdə gərginliyə xidmət edir və beləliklə, özünün bölgəyə müdaxiləsinə zəmin yaradır. Bu baxımdan İstanbul Zirvəsi regional təşəbbüs olaraq son dərəcə vacibdir.

> *NATO-nun timsalında Qərbin artıq bir bütün olmadığını görürük*

> *Boş xəyallara qapılaraq, tatar xalqını eynilə 1944-cü ildəki kimi, macəraya sürükləməyin faydası yoxdur*

> *Sovetlər Birliyi dağılandan sonra NATO Rusiyaya təhdid yaratmayacağı və Şərqə doğru genişlənməyəcəyinə dair söz vermişdi*

***- 3+3 formatının İstanbulda təşkil olunması dolayısıyla prezident Putinin Ərdoğanla bir araya gəlməsi deməkdir. Sizcə, Türkiyə 3+3 formatı üzərindən Rusiyanı Ukrayna məsələsində yola gətirə bilər?***

- Türkiyənin nüfuzunu yalnız Ukrayna üzərindən qiymətləndirmək olmaz. Türkiyə və Rusiya Suriya məsələsində "Astana prosesi"ni həyata keçirir, Qarabağda ortaq hərbi missiyaları var. Türkiyənin ilk nüvə mərkəzini Rusiya şirkətləri inşa edir. Türkiyə havadan müdafiəsini Rusiyadan aldığı "S 400"lərlə təmin edir.

Türkiyə eyni zamanda, NATO-nun ən böyük ikinci ordusuna sahibdir. Bütün bunları birlikdə düşünmək lazımdır. Bundan əlavə, Ukrayna, Qara dənizin üç böyük gücündən biridir. Türkiyə də boğazlar yoluyla Qara dənizin açarını əlində tutur. Moskova bu baxımdan Türkiyənin diplomatik səylərini mütləq diqqətə alacaq.

***- İstər Rusiya - Ukrayna münaqişəsi olsun, istərsə də Qarabağ problemi, həll prosesində Moskva ilə Ankaranın yaxından rol oynaması sizcə Qərbdə səmimi qarşılanır, yoxsa Qərb NATO müttəfiqi Türkiyəni qabağa verməklə özünü münaqişənin məsuliyyətindən xilas etmək istəyir? Axı problemlərin həlli, Qərbdə heç də xoş qarşılanmayan cənab Ərdoğanın hörmətini artırır, Qərb bunu istəməz məncə...***

- NATO-nun timsalında Qərbin artıq bir bütün olmadığını görürük. Almaniya Ukraynaya silah göndərməyi rədd edir. İraq müharibəsindən üzübəri Fransa ilə Almaniyanın bir, İngiltərə ilə ABŞ-ın isə başqa bir qütbdə dayandığının şahidiyik. NATO-nun hərbi qanadını dominə edən ABŞ və İngiltərə, nə Qarabağda, nə də Ukraynada regional təşəbbüsün ortaya qoyulmasını istəməz. Əlbəttə, Türkiyə NATO-nun üzvüdür, amma İstanbul görüşü üçün Qərbin prezident Ərdoğanı irəli verdiyini deyə bilmərik. Bundan əlavə, Qərb gücləri münaqişədən yaxa qurtarmaq deyil, əksinə onu daha da dərinləşdirmək və alovlandırmaq istəyir. Yəni Türkiyə, Rusiya, Azərbaycan, hətta İpək Yolu layihəsi ilə əlaqədar Çin Qafqaz, Qara dəniz və Şərqi Aralıq dənizi enerjisini istehsal etmə siyasəti yürüdür. Son illər Ankara və Moskvanın Cənubi Qafqazda qarşılıqlı geosiyasi maraqlar müstəvisində tarazlığı qoruduğunu və bölgənin problemlərini qərbli vasitəçilərin iştirakı olmadan çözməyi bacardığını görürük.

Bu müstəvidə Qərb bloku, xüsusilə də Vaşinqton, müzakirələrin zəminlərinin Rusiya tərəfindən hazırlanmasından çox narahatdır. Rusiya tarixi müstəvidə Azərbaycan və Ermənistanla yaxın əlaqələrə sahibdir. Belə yaxın əlaqələrə rəğmən Rusiyanın Qərb ölkələrinin əksinə, tərəfsiz qaldığını və tərəflər arasında danışıqlar prosesinə müdaxilə etməyə çalışmadığını demək lazımdır. Moskvanın bu mövqeyi Ankarada da müsbət qarşılanır və bölgədə Türkiyə ilə Rusiya arasında koordinasiyalı siyasətin təməlləri atılır. Cənubi Qafqazda sülh şəraitinin yaradılması, bölgə dövlətlərinin hamısının xeyrinədir. Şəxsən mənə qalarsa, Ankara, Bakı, Moskva və hətta İrəvan bu vəziyyəti yaxşı başa düşür. Belə deyək: prosesi kimin idarə etdiyi deyil, nəticə vacibdir...

*✍ Vüsal*



# Kuryer şirkənlərinin gözləyən "təhlükə"

## e-ticarət

**Türkiyənin məşhur elektron ticarət platforması - "Trendyol" məhsullarını alıcılara birbaşa, karqo şirkətlərinin vasitəçiliyi olmadan çatdıracaq. Bunu şirkətin prezidenti Çağlayan Çetin bəyan edib. Onun sözlərinə görə, bu məqsədlə məhsullarının əsas satış bazarları olan Avropa və Yaxın Şərq ölkələrində çeşidləmə mərkəzləri və anbarlar yaradılacaq:**

"Platformamızda hər bölgədən minlərlə satıcı var. Satdığımız malların 75 faizi Türkiyədə istehsal olunur. Məqsədimiz Türkiyədəki məhsulları Avropa və Yaxın Şərq ölkələrində müştərilərin qapısına çatdırmaqdır. Biz bu məhsulların elektron ixracının texnoloji və logistika infrastrukturuna böyük sərmayə qoyacağıq, bununla da istehsalçıları 500 milyon müştəri ilə görüşdürəcəyik. Bunun üçün platformamıza alman və ərəb dilləri də əlavə olunacaq. Gələcək 5 ildə həm ölkə daxilində, həm də xaricinə 5 milyard dollar investisiya qoymağı planlaşdırırıq. Bu əməliyyatlar üçün xaricdə şirkətlər alınmasını da nəzərdən keçiririk. Bəzi sərmayələri isə sıfırdan edəcəyik. İnvestorlarımız da bizə inanır və öz sərmayələri ilə bizi dəstəkləməyə hazırdırlar".

O, həmçinin bildirib ki, ötən il "Trendyol" 265 milyon ABŞ dolları dəyərində ixrac həyata keçirib. Bunun 150 milyon dollarlıq hissəsi birbaşa, 115 milyon dolları isə dolayısı ilə həyata keçirilib. Əsas ixrac istiqaməti Avropa ölkələri olub.

Qeyd edək ki, son bir neçə ildə Azərbaycanda da onlayn alış-verişə tələbat olduqca artıb. İnsanlar daşıyıcı şirkətlərin xidmətindən istifadə edərək müxtəlif məhsulları xüsusilə Türkiyədən sifariş edirlər. Statistikaya görə, müştərilərin daha çox sifarişi "Trendyol" platformasından olur. Maraqlıdır, görəsən, "Trendyol"un yeni layihəsi Azərbaycanda fəaliyyət göstərən daşıyıcı şirkətlərin işinə necə təsir göstərəcək? Şirkətin məhsulu birbaşa müştərinin ünvanına çatdıracağı ölkələr arasında Azərbaycan da olacaqmı? Ümumiyyətlə, bu layihənin hansı müsbət və mənfi cəhətləri ola bilər?

■ **Məsələni hafta.az-a şərh edən Elektron Ticarət İctimai Birliyinin İdarə Heyətinin üzvü, elektron ticarət məsələləri üzrə mütəxəssis Nicat Manafov bildirib ki, Türkiyənin bəzi elektron ticarət platformaları hazırda da Azərbaycana birbaşa göndəriş edə bilir:**

"Məsələn, Hepsiburada.com, N11.com Azərbaycana birbaşa məhsul göndərir. İndi "Trendyol" da buna qoşulacaq. "Hepsiburada" və "N11" də ən böyük problem ondan ibarət idi ki, Azərbaycana çatdırılma qiyməti baha idi. Eyni zamanda, bir çox məhsulları, o cümlədən marka malları Azərbaycana göndərmirdi. Həmin markaların ölkəmizdə rəsmi təmsilçiləri var. "Trendyol"un başqa bir üstünlüyü var ki, bu platformada satılan məhsulların 80 faizi türk markalarıdır. Hansı ki, onların bir çoxunun Azərbaycanda rəsmi dilerləri yoxdur. Ona görə də həmin məhsulları rahatlıqla ölkəmizə göndərə biləcəklər. Və onu da qeyd edim ki, "Trendyol"nun satış rəqəmləri və həcmi də digər internet mağazaları ilə nisbətdə Azərbaycanda daha yüksəkdir. Alınan məhsulun 75-80 faizi bu platformadan sifariş edildiyi üçün "Trendyol" münasib qiymətdən ölkəmizə məhsullarını göndərə biləcək. Amma bu indi baş verəcək proses deyil, bəlkə 1-2 ilə reallaşdı. Bundan sonra Türkiyənin bütün internet mağazaları, xüsusən yeni nəqliyyat yolunun açılması ilə də bərabər yolüstü, həm də hava nəqliyyatıyla məhsullarını Azərbaycana uyğun qiymətə göndərəcəklər. Nəticədə müştərilər məhsulları birbaşa əldə etmək imkanına malik olacaqlar. Azərbaycanda olan daşıyıcı şirkətlər isə məhsulu birbaşa aldığımız üçün fəaliyyət göstərə bilməyəcəklər".

Ekspert onu da vurğulayıb ki, hazırda ölkəmizdə 150-yə yaxın daşıyıcı şirkət var: "Bu şirkətlər qeyd etdiyim ki, bir çoxu başlanacaq, ya da yaxın 2-3 ildə məcbur fəaliyyət istiqamətlərini dəyişəcəklər".

■ **Mövzu ilə bağlı bizimlə fikirləri bölüşən iqtisadçı-ekspert Xalid Kərimli isə deyib ki, "Trendyol"nun Azərbaycan bazarına daxil olacağı barədə məlumatlar dəfələrlə gündəmə gəlib:** "Bu barədə məlumatlar təxminən 1 ildir ki, yayılır. Amma bu məlumatlar şayiə xarakterli idi. Türk markaları birbaşa sürətdə Azərbaycan bazarında da var. "Trendyol"un üstünlüyü ondan ibarət idi ki, insanlar birbaşa özləri alırdılar və karqo şirkətləri də çatdırılma məsələsini həll edirdi. "Trendyol" birbaşa bazara girirsə, burada anbarlarını qurmalı, təmsilçiliyini yaratmalıdır. Yəqin ki, onlar yarana biləcək bütün inzibati xərcləri də hesablayıblar. Çox güman ki, şirkət bu addımı ilə bütün satışlarını nəzarət altına almaq istəyir. Təbii ki, bu addım yerli karqo şirkətlərinin fəaliyyətini sual altına qoyacaq. Bu gün bazarda 100-dən çox karqo şirkəti var və həmin şirkətlərdə ən azı 10-15 nəfər işləyir. Xüsusilə gənclər arasında məşğulluğu təmin edirlər və müəyyən də qazancları var. "Trendyol" Azərbaycanda təmsilçilik qurarsa, bu şirkətlər zəifləyəcək və müflis olacaqlar, bəziləri də fəaliyyət istiqamətlərini dəyişəcəklər. İstənilən halda bu şirkətlərin biznes modeli dəyişmək məcburiyyətində qalacaq. Çünki bu biznes Azərbaycanda "Trendyol" sayəsində məşhurlaşmışdı. Burada belə bir məsələ də var ki, "Trendyol"un sahibi konkret olaraq Azərbaycan bazarına girəcəklərini açıqlamayıb. Ona görə də yaxın gələcəkdə onların bizim bazara daxil olacağı gözlənilən deyil. "Trendyol"un sahibi Avropa və Yaxın Şərq ölkələrində çeşidləmə mərkəzləri, anbarlar yaradacaqlarını bəyan edib. Azərbaycan onlar üçün o qədər əhəmiyyətli böyük bazar deyil".

> *Alınan məhsulun 75-80 faizi bu platformadan sifariş edildiyi üçün "Trendyol" münasib qiymətdən ölkəmizə məhsullarını göndərə biləcək*

> *"Trendyol" Azərbaycanda təmsilçilik qurarsa, bu şirkətlər zəifləyəcək və müflis olacaqlar, bəziləri də fəaliyyət istiqamətlərini dəyişəcəklər*

*✍ Sevinc*

# Azərbaycanın balıq ehtiyatları

## Layihə

**_Müşahidələrə görə, son 10-15 ildə Azərbaycanda, o cümlədən Xəzər dənizində balıq ehtiyatları əhəmiyyətli dərəcədə azalıb. Bu azalmanın təkcə Azərbaycan ərazisində deyil, bütün Xəzər dənizi akvatoriyasında müşahidə edildiyi önə sürülür. Bu yaxınlarda İranın şimalında yerləşən Mazandaran vilayətində, Xəzər dənizində uzunluğu 3 metr, çəkisi isə 210 kq olan nərə balığının (beluqa) tapılması müəyyən sualların ortaya çıxmasına səbəb oldu. Maraqlıdır, görəsən, Xəzərin Azərbaycan sektorunda nəhəng nərə balıqlarına niyə rast gəlinmir? Ümumiyyətlə, Azərbaycan balıqçılarının toruna ən son nə zaman nəhəng balıq düşüb? Ölkə ərazisində balıq ehtiyatlarının azalmasına əsas səbəb nədir?_**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

Qeyd edək ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Zoologiya İnstitutunun aparıcı elmi işçisi Süleyman Süleymanov bununla bağlı açıqlama verib və Xəzər dənizində bu ölçüdə balıqlara davamlı olaraq rast gəlinməməsinin səbəbini açıqlayıb. Onun sözlərinə görə, müasir dövrdə bu balıq növlərinin sayı Xəzərin orta və cənub hissələrinə nisbətən, şimal hissəsində qismən də olsa üstünlük təşkil edir: "Bunun səbəbi onların buradan Ural çayına miqrasiya etmək imkanlarının olması ilə bağlıdır".

Ural çayında təbii şəraitin saxlanıldığını deyən S.Süleymanov bildirib ki, nərə balıqları bu yerlərə miqrasiya edərək kürülərini tökür, çoxala bilirlər. "Azərbaycanda isə təbii çoxalma yerlərinin sayı demək olar ki, yox dərəcəsindədir", - deyə tədqiqatçı son dövrlərdə Azərbaycan ərazisində böyük ölçüyə malik nərə balıqlarına rast gəlinməmiyini vurğulayıb.

O həmçinin bildirib ki, yerli mütəxəssislər Azərbaycanın regionlarında ekspedisiyalar zamanı nərəcinsli və digər növlərdən olan balıq ehtiyatı, onların yayılması, növ tərkibi araşdırıblar: "Aparılan tədqiqatlar nəticəsində müəyyən olunub ki, Kür və Araz çaylarında suyun səviyyəsi 50-60 faiz azalıb. Kür çayı, demək olar ki, dənizə çatmır. Bunun nəticəsində nərəkimilərin və qızıl balıqların ehtiyatının kəskin azalması gözlənilir. Qeyd olunan problemlərin qarşısını almaq, Azərbaycanın ərzaq təhlükəsizliyi və əhalinin daha keyfiyyətli qidalarla təmini üçün ciddi tədbirlər görülməlidir. Bu məqsədlə işğaldan azad olmuş ərazilərin potensialından istifadə etmək mümkündür".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Azərbaycan Həvəskar Balıqçılar İttifaqının rəhbəri Əfqan Əliyev də bildirib ki, Azərbaycanda balıq ehtiyatları ciddi şəkildə azalıb: "Balıqların təbii su hövzələrində azalması təbii amillərlə yox, insan faktoru ilə bağlıdır.** Düzdür son illər qanunsuz balıq ovuna qarşı mübarizə genişləndirilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə qərara gəlmişik ki, qanunsuz balıq ovuna qarşı birlikdə mübarizə aparaq. Bizim 33 minə yaxın üzvümüz var. Çalışırıq ki, Bakıda və regionlarda nazirliyin işçilərinə bacardığımız qədər kömək edək. Son vaxtlar aparılan araşdırmalara görə, su hövzələrində balıq ehtiyatı çox ciddi şəkildə azalıb. Su hövzələrində balıqların azalması təbii amillərlə yox, insan faktoru ilə bağlıdır. Balıqları əsasən xaricdən gələn sintetik torlarla məhv edirlər. Bu sintetik torlar 70 ilə yaxın çürümür. Bu torları istifadə edib, sonradan dənizə atırlar. İri və kürü verən balıqlar dənizin dibində olur. Belə torlar həmin balıqları məhv edir. Bu torlar qanunla qadağandır. Buna baxmayaraq, həmin torlardan gizli istifadə olunur.

> *Bir vaxtlar Azərbaycanın nərələri hər yerdə tanınırdı, ancaq bu gün onların kökü kəsilmək üzrədir*



**Əfqan Əliyev,**
Azərbaycan Həvəskar Balıqçılar İttifaqının rəhbəri

Bizim əsas mübarizə apardığımız sahələrdən biri də belə balıqçılardır. Yuxarı Şirvan kanalı balıqların əsas kürü verdiyi yerdir. Biz oranı nəzarətə götürmüşük. Keçən illərlə müqayisədə kanalda balıq artıb. Amma bizə çatan məlumata görə kanalın bəzi yerlərində yenə də qapanmalar var. Bu istiqamətdə yeni reyd keçirməyi nəzərdə tutmuşuq".

Mütəxəssis onu da bildirib ki, əslində Xəzərin Azərbaycan sektorunda da nəhəng nərə balıqlarına rast gəlinir. Sadəcə, bəzi balıqçılar qanunsuz ovla məşğul olduğundan belə hadisələrin qeydiyyatını aparmaq mümkün olmur: "Mən bilirəm ki, 4 il bundan əvvəl Səngəçalda bir balıq tutmuşdular,360 kilo idi. Həmin balıq orada bir vətəgəyə girmişdi. Amma bu qanunsuz, hesabatsız olduğu üçün heç bir yerdə məlumatı getmədi. Həmin balıq 40-70 kilo arası kürü verir. Onun da indiki bazar qiyməti 150-200 min manatdır. Yəni, mə özüm bu hadisənin şahidi olmuşam. Amma o vaxt bizim səlahiyyətlərimiz olmadığından məsələyə müdaxilə edə bilmədik. Artıq 2 ildir ki, biz bu məsələ ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə mübarizə aparırıq. Ona görə son 2 ildə əsasən, kütüm və ziyad balığında artım var. Bu gün Azərbaycanın şah balıqlarından biri də kütüm balığıdır. Bu balıqlara o qədər tələbat var ki, hətta Amerika bazarında belə satışa çıxarılır".

Ə.Əliyev vurğulayıb ki, ölkəmizdə balıq ehtiyatının azalmasının əsas səbəblərindən biri də balıqçılığın inkişafı və miqrasiyası üçün yaranan su kanallarının insanlar tərəfindən zəbt olunmasıdır: "Kanalların ağzı brakonyerlik üsulları ilə bağlanıb. Şirvan kanal, Şaqay kanalı, Varvaraçay, Lənkərançay, Astara çayı, Araz çaylarının dənizə birləşən istiqaməti tam şəkildə bağlanmışdı. Biz keçən ildən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əməkdaşlıq edərək həmin kanalların ağzını bir az açmışıq. Bu həftə sonu brakonyerlərlə mübarizə çərçivəsində Şirvan kanalda reyd aparacağıq və qanunsuz balıq tutmaq üçün istifadə olunan vasitələr kanaldan təmizlənəcək. Sizi inandırım ki, bu vasitələr tamamilə təmizlənərsə, daxili su hövzələrində balıq ehtiyatları əhəmiyyətli dərəcədə artacaq. Eyni zamanda, nərə balıqlarının sayında da ciddi artım olacaq. Nərə balıqları artım üçün əsasən, daxili su hövzələrinə, kanallara üz tutur.

Brakonyerlər isə bir gündə 3-4 ton balıq tutur və bu yol ilə balıqların kütləvi qırılmasına səbəb olurlar. Bir vaxtlar Azərbaycanın nərələri hər yerdə tanınırdı, ancaq bu gün onların kökü kəsilmək üzrədir. Balıqlar qışlıq yuxuya gedən zaman belə onları xüsusi cihaz vasitəsi ilə ovladılar. Yəni, deməyim odur ki, Xəzərin Azərbaycana aid hissəsində nərə balıqlarının yoxa çıxması insan faktoru ilə bağlıdır, burada iqlim dəyişikliyindən söhbət gedə bilməz. Çünki İranda, Türkmənistanda, Qazaxıstanda nərə balığı var, Azərbaycanda isə yoxdur".

Ekspert öz açıqlamasında onu da qeyd edib ki, daxili su hövzələrində balıqları suya elektrik cərəyanı buraxmaqla məhv edirlər: "Bu çox ağır cinayətdir, mübarizə aparılır, amma belə hallar hələ də var. Hazırda Ağgöl də, Qızılağacda, Sarısuda, Zaqatala, Samux, Şəmkirdə bu vasitə ilə balıq ovlayanlar xeyli saydadır. Onlar əsasən, gecələr işləyirlər. Bu da bizim gələcəyimizin sağlamlığını məhv edir. Məsələn, həşəratların, xüsusən, ağcaqanadların 80 faizi daxili su hövzələrində yumurta qoyurlar. Balıq da onlardan qidalanır. Balıq əvvəlki kimi olmadığından həşəratlar, ağcaqanadlar əhəmiyyətli dərəcədə artıb. Bilirik ki, bir çox xəstəliklərin əsas daşıyıcısı qansoran həşəratlardır. Bu isə o deməkdir ki, gələcəkdə yolxucu xəstəliklərin sürətlə çoxalma ehtimalı var".

Ə.Əliyev ölkə əhalisinin balıq məhsullarına olan illik tələbatına da toxunaraq deyib ki, hazırda tələbatın 15 faizi daxili istehsal hesabına ödənilir: "Digər 85 faiz İran, Rusiya, Türkiyə və bir sıra Skandinaviya ölkələrindən idxal hesabına qarşılanır.

Halbuki biz əvvəllər ixracatçı ölkə idik. Bu ixracı da bərpa etmək mümkündür. Sadəcə, bu sahəyə mütəxəssislərin iştirakı ilə nəzarət daha da artırılmalıdır. Eyni zamanda, vətəndaşlar da təbii ehtiyatlarımızın məhv edilməsinə biganə yanaşmamalıdırlar. Bu təbiət hamımızındır, bu evdə hamımız yaşayırıq. Ona görə də yaşadığımız dünya adlı evə hamılıqla sahib çıxmalıyıq".

### Yeri gəlmişkən...

■ **Bu gün dünyada 23 min balıq növü var. Təkcə Xəzər dənizində bu say 120-yə qədərdir. Dənizin Azərbaycan sektorunda isə 80-ə qədər balıq növü mövcuddur.**

Növlərin sayı az olmaqla bərabər, əksər hissəsi endemikdir, yəni yalnız Xəzər dənizində yaşayır.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Ağdamlılar qayıdışla bağlı sorğudan narahatdır



◂ əvvəli 1-ci səhifədə

"Əsas da onu götürürdülər ki, sənin evin var, adına əmlak var, maşının var, yaxud sən kimə ərə getmisən, haradan qız almısan... Bundan çıxış edərək, deyirdilər ki, sən məcburi köçkün deyilsən, sənə pul düşmür. Bu, çox səhv olan bir mövqe idi. Mən bu izahatı onlara da verdim ki, bu insan xəstə deyil, şikəst deyil. Erməni orada bunun mal-dövlətini əlindən alıb, ağlını da əlindən almayıb ki. O burada ağlını da işlədəcək, fiziki imkanlarından da istifadə edib, işləyəcək də, çörək də qazanacaq, ev də tikəcək, maşın da alacaq. Sən buna "sağ ol" deməkdən, üstəlik, çörəkpulunu da kəsirsən?.. Ona görə də bu gün qayıdış məsələsində belə anlaşılmazlıqlar ola bilər. Hesab edirəm, bir problem olmayacaq. Bütün bu məsələlər cənab Prezidentimizin nəzarəti altında həyata keçiriləcək".

■ **Ağdam Şəhər İcra Nümayəndəliyinin inzibati ərazi dairəsinin nümayəndəsi Pənah Fətəliyev bildirib ki, sorğu ilə bağlı məsələdə narahatlığa əsas yoxdur.**

Bu sorğu sadəcə qayıdışla bağlı insanların fikirlərini öyrənməyə yönəlib. "Ümumi sorğudur, narahat olmağa dəyməz. Əksinə sevinmək lazımdır ki, artıq belə sorğulara başlanıb və qayıdış yaxınlaşır, torpaqlarımıza qayıdırıq. Sadəcə, burada "Qayıdacaqsınızmı?" sualı bir qədər xoş qarşılanmır. Bütün hallarda bu sorğular vətəndaşlarımız, qayıdışda adları olan şəxslərimiz üçün çox vacib, illərdir gözlənilən işlərdəndir". P.Fətəliyev deyir ki, qeyd olunan "Eviniz varsa gəlib şəraitinizlə tanış olacağıq, evinizə baxış keçirəcəyik" kimi ifadələr sorğuya daxil deyil və bu, yanlışlıqdır: "Ola bilər ki, burada anlaşılmazlıq olub. Təlimatsızlıq, sualın düzgün verilməməsi halı da ola bilər".

■ **Ağdam Şəhər İcra Aparatının keçmiş rəhbəri, Ağdam sakini Zülfü Qasımov bildirir ki, belə sorğularda təcrübəli, danışmağı bacaran insanlar iştirak etməlidir.**

"Mən 22 il Ağdam Şəhər Sovetinin sədri olmuşam. Zəng vurub adımı soruşurlar və deyirlər ki, siz ailənin başçısısınız? Deyirəm, bəli. Sonra soruşur ki, "Siz həmin ailənin üzvüsünüz, o ailədənsiniz? Deyirəm, o ailənin başçısıyamsa, hansı ailədən olmalıyam ki? Sonra soruşur ki, "Siz ali təhsillisiniz?". Bu məni tanımırsa, görün o birilərə nələr deyir, soruşur? Yəni belə suallar mənasız görünür. Oturublar orada, hər yerə də zəng vururlar ki, "Qayıdacaqsınız Ağdama?". Əlbəttə, qayıdacağam. Belə sorğular baş aldatmaqdır. Bu cür sorğu keçirmək, ancaq camaatı narahat etməyə yönəlib".

Z.Qasımov deyir ki, sorğu ilə bağlı Ağdam İcra Nümayəndəliyinə zəng vurub narazılığını bildirib. Xahiş edib ki, sorğunun götürülməsində iştirak edənlər, heç olmasa, əhali ilə danışmağı bacarsınlar.

"Digər məsələ qaldırırlar ki, bütün qəsəbələrdəki evləri boşaltmalısan. Tutaq ki, qəsəbədə bir adama bir otaq veriblər, bu adam da sonra bu evi böyüdüb edib böyük bir villa. Yaxşı, bu evi kimə verib getməlidir? Belə fikirlər insanların başını qatıb, narahat etməkdən başqa bir şey deyil. Məsələn, köçkünlərə qəsəbələr tikiləndən sonra köçkünlük statusu ləğv olunmadı.

Ona görə ləğv olunmadı ki, çörəkpulu kəsilməsin. O vaxt Əli Həsənov da dönə-dönə deyirdi ki, ailənin bir üzvü qalar, qalanları gedər. Bu gün 300 minə qədər köçkün əhali evlə təmin olunubsa, o evləri boşaldıb kimə verəcəklər, yaxud onların hamısı Ağdamda, yaxud başqa yerlərdə necə yerləşə bilər".

■ **Ağdam Rayon Ağsaqqallar Şurasının sədri Əvəz Mikayılov bildirir ki, iki dəfə Ağdamda olub. O, Ağdamda yaşamaq üçün bir dənə də evin olmadığını, erməni işğalçılarının hər tərəfi yandırdığını, dağıtdığını xatırladaraq insanları hələ köçmək üçün tələsməməyə çağırıb.**

"Əgər vətəndaş qaçqınçılıqan sonra haradasa ev tikibsə, yaxud dövlət ona ev veribsə, həmin insanlar o evlərdə yaşayacaqlar. İşğaldan 30 ilə yaxın vaxt keçib. Ailələr böyüyüb, təzə gəlin gəlib, qız köçüb. Bu ailələrin hamısı Ağdama getməyəcək, nə də heç kəs bunlardan qaldıqları evlərini geri almayacaq. Bir ailədən 3-4 ailə əmələ gəlib. Tutaq ki, mən evin böyüyüyəm, atayam. 74 yaşım var. Mən öz evimə gedəcəyəm. Amma deyə bilmərəm ki, mənim 4 övladımı da mənimlə bərabər qaytaracaqlar". Ə.Mikayılov bildirir ki, sorğularda yeganə məqsəd odur ki, şaxələnən, qollara ayrılan ailələr müəyyən olunsun. O ailələrin kökü mütləq Ağdama köçürüləcək.

"Burada başqa problem olmamaldır. Şəxsən mənim 2 oğlum Bakıdadır. Bu, o demək deyil ki, onlar da Ağdama qayıdacaq. O, öz işini Bakıda qurub, uşağı orada oxuyur.

Ona görə də kütləvi şəkildə köç etmək mümkün deyildir. Ağdamda hələ heç nə yoxdur. Evlər tikilməyib, qəsəbə salınmayıb. Camaat tələsməsin. Minalar təmizlənir. Bu məsələlər hələ 2-3 il çəkəcək".

✍ **Tahirə Qafarlı**



■ **"14 Rusiya şirkəti Qarabağda yenidənqurma layihələrinin həyata keçirilməsi üçün müraciət edibdər". Bunu Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov söyləyib.**

Onun sözlərinə görə, şirkətlərin konkret təklifləri var və əksəriyyəti podratçılıqla bağlı olsa da, onların sırasında sənaye və kənd təsərrüfatı sahələrinə investisiya layihələri də var. Səfir qeyd edib ki, Rusiya şirkətləri, həmçinin Azərbaycanda dəmir yolu avadanlıqlarının, tikinti materiallarının istehsalı, eləcə də fermer təsərrüfatlarının yaradılması üzrə layihələrin həyata keçirilməsində maraqlıdır. "Rusiya şirkətlərinin Azərbaycanda enerji obyektlərinin modernləşdirilməsi və inşasında iştirakı imkanları da müzakirə olunur", - deyə Boçarnikov əlavə edib.



■ **Bakıda şagirdlərin sinifdə qeyri-etik davranışlarını əks etdirən videogörüntü ilə bağlı araşdırma yekunlaşıb.**

Hafta.az xəbər verir ki, 165 nömrəli tam orta məktəbdən verilmiş məlumatda qeyd olunur ki, şagirdlərin sinif otağında tədris prosesinə uyğun olmayan davranışının əks olunduğu videogörüntü ilə bağlı məktəb rəhbərliyi tərəfindən araşdırma aparılıb, dərsin təşkilində yol verdiyi nöqsanlara görə fənn müəlliminə töhmət verilib. Məktəbin direktor müavinləri ilə bağlı tənbeh tədbirləri görülməsi üçün isə təqdimat verilib. Həmçinin hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən valideyn və şagirdlərin izahatları alınıb. Üzrxahlıq edən şagirdlər bir daha belə hallara yol verməyəcəklərini bildiriblər.




■ **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 yanvar 2022-ci il tarixli 28 nömrəli Qərarına əsasən SARS-CoV-2 PZR test nəticəsi "müsbət" olan şəxslərin və onların müəyyən olunmuş "sıx təmaslı"larının təcrid (karantin) müddəti ölkəmizdə 14 gündən 7 günə azaldılıb.**

Hafta.az xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB-in birgə məlumatında əksini tapıb. Qeyd olunub ki, COVID-19 xəstəliyini keçirmiş, bununla bağlı PZR testinin nəticəsi pozitiv çıxmış və rəsmi qeydiyyata düşmüş şəxslər 7 gündən sonra "İmmunitet sertifikatı" əldə edə bilərlər. "Sertifikatın qüvvədə olma müddəti 6 aydır.



■ **"Bakı-Təbriz-Bakı aviareysinin açılması, eləcə də Təbriz-Naxçıvan dəmir yolu xətti üzrə sərnişin qatarlarının fəaliyyəti İranın yol və şəhərsalma naziri Rüstəm Qasiminin Bakıya səfərinin nəticələrindəndir".**

Bunu İranın Şərqi Azərbaycan əyalətinin başçısı Abidin Xorrəm deyib. O bildirib ki, İranın yol və şəhərsalma naziri R. Qasiminin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri çox səmərəli bir səfər olub: "İranın özəl şirkətlərinin dəmir yolu tikintisində müştərək əməkdaşlıq, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında iştirakı məsələləri, iki ölkə arasında işğaldan azad olmuş ərazilərdən yük məhsullarının mübadiləsinin həyata keçirilməsi bu səfərdə əldə olunan nailiyyətlərdəndir".



■ **"ABŞ və Qərb özləri üçün təktərəfli üstünlük təmin etmək istəyir". Bu barədə Sergey Lavrov Dövlət Dumasında "hökumət saatı" çərçivəsində etdiyi çıxışda söyləyib.**

"ABŞ və Qərb ölkələri digər ölkələrin maraqları ilə hesablaşmadan özləri üçün təktərəfli üstünlük təmin etməyə çalışırlar". Lavrov Qərb ölkələrinin Ukraynanı Rusiyaya qarşı aqressiv addımlar atmağa həvəsləndirdiyini də əlavə edib. "Rusiya təhlükəsizlik təminatları ilə bağlı verdiyi təkliflərin fasiləsiz diskussiyalarda qalmasına imkan verməyəcək". Rusiya XİN rəhbəri Rusiyanın maraqlarının istənilən vəziyyətdə qorunacağını əlavə edib.



■ **"Üçtərəfli Bəyanat imzalandıqdan sonra həm Azərbaycan Silahlı Qüvvələrinin nəzarət etdiyi ərazilərdə, həm də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə, I Qarabağ müharibəsi ilə bağlı təxminən 140 şəxsə aid meyit qalığı müəyyən edilərək götürülüb və Dövlət Komissiyasına təhvil verilib".**

Bunu APA-ya müsahibəsində Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri İsmayıl Axundov deyib. O qeyd edib ki, bu meyit qalıqları üzrə Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza Patoloji Anatomiya Birliyində 230 bioloji nümunə götürülərək Daxili İşlər Nazirliyinin Kriminalist Tədqiqatlar İdarəsinin laboratoriyasına təhvil verilib:

Bizim səfir

# Azərbaycan mənim üçün unudulmaz ölkədir

**Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirləri arasında bir dostumuz vardı - mehriban insan, hər kəslə sıx ünsiyyət qurmağı bacaran, işinin ustası olan diplomat, savadlı-dünyagörüşlü ziyalı idi. Uzun müddət Azərbaycanda səfir işləyib - səhv etmirəmsə, tam 7 il və 2016-cı ildə vətəninə qayıdıb. Tanıyanlar bildi söhbət kimdən gedir, bu şəxs Mərakeş Krallığının Azərbaycandakı keçmiş səfiri Hassan Hamidir. Bu günlərdə ona təklif etdim ki, gəlin keçmiş xatirələrinizə, Azərbaycandan kənarda keçən yaşamınıza oxucularımızla birlikdə nəzər salaq. Dedi son illərini oxumaqla, yazmaqla keçirir, yeni dincəlir və bu mövzuda danışacağıqsa, olar. Razılaşdım və müsahibəyə başladıq...**



**Hassan Hamidir,**
Mərakeş Krallığının Azərbaycandakı keçmiş səfiri

- Əvvəla, sizinlə yenidən ünsiyyət qurmaq mənə çox xoş oldu. İllərəvvəl ilk görüşümüzü xatırlayıram: Səfirlikdə sizə müsahibə vermək şərəfinə nail oldum. Bugünkü yaşamıma gəldikdə, Mərakeşdə olur və xüsusi məşğuliyyətim yoxdur. Vaxtımın çoxunu oxumağa və yazmağa sərf edirəm. Üç onillik diplomat kimi xidmətdən sonra normal həyata qayıtmışam...

***- Azərbaycandan çoxdan getmisiniz, ondan sonra Bakıya gəldinizmi? Azərbaycandan kimlərlə əlaqə saxlayırsınızmı? Ümumiyyətlə, Azərbaycanla hər hansı formada əlaqəniz qalıbmı?***

- Ömrümün bir hissəsini keçirdiyim Azərbaycanı unuda bilərəmmi? Azərbaycan mənim üçün çox əziz, mehriban, optimist və istiqanlı insanları, minillik mədəniyyəti, uzaqgörən rəhbərliyi olan ölkədir. Həm də hər şeydən əvvəl, orada tanış olduğum insanların peşəkarlığını və yüksək insani keyfiyyətlərini görmüşəm. Təbii ki, azərbaycanlı dostlarla və hələ də Azərbaycanda yaşayan bəzi əcnəbilərlə çox yaxşı əlaqələr saxlayıram. 2016-cı ilin sentyabrında missiyam başa çatdıqdan sonra heç vaxt Azərbaycana səfər etməmişəm. Düzdür, məni Bakıya azərbaycanlı dostlar, eləcə də əziz dostum, səfir Adil Embarç dəvət edib. Yeri gəlmişkən, fürsətdən istifadə edib onu iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində gördüyü əlamətdar işlərə görə təbrik edirəm. Vaxt tapa bilmədiyim üçün səfərə çıxa bilmədim. Bu, yalnız bir təxirəsalınmadır, ilk fürsətdə Azərbaycana gələcəyəm.

> “Azərbaycan mədəniyyətinin korifeyləri ilə görüş məni çox sevindirdi

***- Azərbaycanla bağlı hansı xatirələriniz var? Maraqlı olanlardan bir neçəsini bölüşün lütfən...***

- Yalnız əla xatirələrim var. Birincisi, 2009-cu ilin martında Mərakeş Krallığının Azərbaycana ilk daimi səfiri kimi gəlişim Novruz şənliklərinə təsadüf edir. Mən sözün əsl mənasında heyran qalmışdım. Azərbaycan mədəniyyətinin korifeyləri ilə görüş məni çox sevindirdi. Həmin yaşayan əfsanələr öz bilikləri ilə yanaşı, təvazökarlığı ilə də seçilirlər.

Muzey Mərkəzinin direktoru Liana Vəzirovanın sayəsində müstəsna bədii fəaliyyətlərə ev sahibliyi edən bu mədəniyyət ocağını ziyarət etmişəm. Xəyyam Abdinov, Əminə Məlikova, eləcə də, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Əliqismət Lalayev, Muğam Mərkəzinin direktoru, böyük pianoçu Murad Hüseynov və sairlə yaxın dostluğumuz olub. Möhtəşəm bir dünya olan Muğam festivalını, Qəbələdəki mədəniyyət tədbirlərini necə unuda bilərəm? Kulturologiya üzrə tədqiqatların təbliğatçısı, “Simurq” Mədəniyyət Assosiasiyasının prezidenti, professor Fuad Məmmədovu çox yaxşı xatırlayıram.

***- Mərakeşdə vəziyyət necədir? Orada insanların yaşam tərzi şəxsən məni çox maraqlandırır. Lütfən ölkələrimizin insanlarının yaşam tərzlərini müqayisə edin, bizdə təəssürat yaradın... Məsələn, bilirik ki, Mərakeşdə havalar Azərbaycanla müqayisədə daha istidir və ərazisində səhralar var, hansı ki bizdə yoxdur...***

- Azərbaycan və Mərakeşin insanları açıqfikirli, dünyagörüşlüdür. Təbii şəraitə gəlincə, coğrafiyamız fərqlidir. Naxçıvanda müəyyən yerlər görmüşəm ki, Mərakeşin təbiətinə çox bənzəyir. Xüsusən Meknes şəhərindən cənubda qalan bölgələrə.

Ölkəmizin qalan bütün əraziləri fərqlidir. Ölkələrimiz arasında bir qəribə bənzərlik isə xalqlarımızın istifadə etdiyi texniki qaydalardır. Ölkəmizdə istifadə olunan bu texniki qaydalar - quraq ərazilərdə su itkisini azaltmaq və təbiətin mühafizəsində istifadə edilən üsullar böyük uğur qazanıb. İqlim baxımından, ümumiyyətlə, hər iki ölkədə dörd fəsil yaşanır.

Mərakeşin Aralıq dənizi və Atlantik okeanında 3500 kilometr sahil xətti var. Ölkəmiz əsasən dağlıq relyefə malikdir. Ənənəvi kənd təsərrüfatı yaxşı inkişaf edib. Bu gün Mərakeşdə müxtəlif mədəniyyətlər mövcuddur - Amazighlər (Bədəvilər), ərəblər, səhralılar, İbranilər, Afrika və Aralıq dənizi mənşəli digərləri. Mərakeş yaxşı inkişaf etmiş turizm ölkəsidir. Bununla yanaşı, illərdir ki, Krallıq bir neçə müstəvidə, xüsusən də sənaye sahələrində çox böyük uğurlar qazanıb. Düşünürəm ki, Mərakeşlə Azərbaycan bir çox sahədə əlaqələrini gücləndirə bilərlər. Qısası, birlikdə görüləsi çox şey var və təbii ki, bunun sirri qarşılıqlı hörmət və minnətdarlıqdadır.

***- Çoxdan Avropa ölkələrindən birinin keçmiş səfiri ilə müsahibə edərkən, o dedi ki, bütün xatirələrini toplayaraq iki cildlik kitab yazıb. Həmin kitabda Azərbaycana da 100 səhifə yer ayırıb. Siz necə, kitab yazmaq istəmirsiniz?***

- Həyatımın önəmli hissəsini Azərbaycanda keçirmişəm və bu mənim üçün böyük şərəfdir. Bildiyiniz kimi, mən həm də şair və yazıçıyam. Kitablarımın böyük hissəsini Azərbaycanda yazıb, çap etmişəm. Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun mətbəsində işıq üzü görən “Xəzərin nəğmələri” adlı kitabımda Azərbaycan dilinə tərcümə edilmiş şeirlər toplanıb, “Qanun” Nəşriyyatı isə ingilis dilində üç əsərimi çap edib.

Bu kitabların üz qabığının tərtibatını azərbaycanlı rəssamlar Afət Axundzadə və Cəmilə Həşimova işləyiblər. “The Observer” tərəfindən ingilis dilində iki qısa hekayəm dərc olunub. Bunlar Qız qalasından ilhamlanan “The Scent of Incoherence” (“Uyğunsuzluğun ətri”) və atası xaricdə olan balaca azərbaycanlı, amma çox ağıllı bir qızdan bəhs edilən “Gulsum's Twisting Twilight” (“Gülsümün bükülən alatoranlığı”) adlı hekayələrdir. Onlar Dövlət Tərcümə Mərkəzinin jurnalında da dərc edilib. Eləcə də UNESCO-nun himayəsi altında Ümumdünya Fəlsəfə Gününün qeyd edilməsi ilə bağlı Azərbaycan Elmlər Akademiyasının, xüsusən də Şərqşünaslıq İnstitutunun təşkil etdiyi konfranslar silsiləsində iştirak etmişəm və indi də iştirak edirəm.

Məni bu möcüzəli fəlsəfə və bilik dünyası ilə davamlı şəkildə tanış etdiklərinə görə professorlar İlham Məmmədzadəyə və Zöhrə Əliyevaya çox minnətdaram. Azərbaycan və rus dillərinə tərcümə olunmuş məqalələrim bu hadisəyə həsr edilmiş nəşrlərdə dərc olunur. Gördüyünüz kimi, Azərbaycan mənim romantik və intellektual yaradıcılığım üçün böyük ilham mənbəyi olub. İki il əvvəl ərəb dilində çap etdirdiyim şeirlər toplusunda da bu ilhamdan yararlanmışam.

***- Ümumiyyətlə, fəaliyyətiniz dövründə hansı ölkələrdə çalışmısınız və onlardan hansı sizə daha yaddaqalan olub?***

- Dörd qitədə - Afrika, Avropa, Asiya və Şimali Amerikada yerləşən bir çox ölkədə işləmişəm. Hər ölkə məni özünəməxsus şəkildə qəbul edib və yaddaşımda yer tutub. Məncə, hər şey düşüncə tərzindədir.

Şəxsiyyətlərarası münasibətlər qiymətləndirmə və mühakimə barometri olaraq qalır. Açıq cəmiyyətlər özünəinamlı olur və başqaları ilə rəqabət aparmaqdan çəkinmirlər. Belə cəmiyyətlər xaricilərı assimilyasiya üçün deyil, inteqrasiya etmək məqsədilə qəbul edir. Bu baxımdan inanın ki, Azərbaycan mənim üçün unudulmaz ölkə olaraq qalır.

***- Yaxın gələcəkdə Azərbaycana səfər etmək fikriniz var? Əgər gəlsəydiniz ilk işiniz nə olardı: haralara baş çəkərdiniz, kimlərlə görüşərdiniz?***

- Tezliklə ziyarət etməyi planlaşdırıram. İnşAllah, əminəm ki, COVID-19 pandemiyası tezliklə pis xatirəyə çevriləcək. Gəlsəm, uzun bir dost siyahım var. Ola bilsin, hansısa mədəniyyət və ya incəsənət fəaliyyəti ilə bağlı gəlim Azərbaycana. Qısamüddətli tədqiqat layihəsinin bir hissəsi kimi qalmaq istərdim orda. Axı niyə də yox, müxtəlif regionlarda qeydə alınan inkişaf haqqında öyrənmək və əziz dostlarımı ziyarət etmək istəyirəm.

> “Yenidənqurulmuş şəhərləri ziyarət etmək isə mənim üçün böyük bir kəşf olacaq

***- Yeri gəlmişkən, sizdən sonra Azərbaycanda xeyli dəyişiklik olub - torpaqlarımız işğaldan azad edilib. Yeriniz məlum, Bakıdakı xarici diplomatlar da azad olunmuş torpaqlara səfərlər ediblər. O cümlədən, Mərakeşin ölkəmizdəki səfiri də hərzamanki kimi, ölkəmizə və xalqımıza dəstək olaraq o yerlərə baş çəkib. Maraqlıdır, illərlə Azərbaycanda çalışmış diplomat olaraq, Azərbaycana səfər etsəydiniz, azad olunmuş o gözəl məkanlara gedərdiniz?***

- Azərbaycan mənim üçün böyük əhəmiyyətə malik ölkədir. Onun ərazi bütövlüyünün tamamlanması çox yaxşı xəbərdir. Yenidənqurulmuş şəhərləri ziyarət etmək isə mənim üçün böyük bir kəşf olacaq. Əminəm ki, açılan tikinti sahələri təkcə bərpa olunan əraziləri deyil, bütün Azərbaycanı daha da dəyişdirəcək. Azərbaycan xalqı kimi mərd xalq buna həqiqətən layiqdir...

✍ Vüsal

# İşğaldan azad edilmiş ərazilərin bərpası

## Qadın sahibkarlarımız da öz töhfələrini verəcəklər

Qarabağ

**“2020-ci il Azərbaycan dövlətinin və xalqının çoxəsrlik tarixinə əlamətdar il kimi daxil oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycanın şanlı ordusu 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı azad etdi. Bu hadisə Azərbaycanın çoxəsrlik tarixinə qəhrəmanlıq salnaməsi kimi daxil oldu. Şanlı Qələbəmiz təkcə tarixi ədalətin bərpası və Azərbaycanın haqlı mübarizəsinin kulminasiya nöqtəsi deyil.**



**Tahir Budaqov,**
Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri

Qələbə nəticəsində regionda yeni reallıqlar yarandı və Azərbaycanın onsuz da böyük olan rolunun bundan sonra daha da artması üçün yeni imkanlar formalaşdı”. Hafta.az-ın verdiyi məlumata görə, bu fikirləri Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

Tahir Budaqov bildirib ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycanın iqtisadi rayonlarının bölgüsünə yenidən baxıldı və işğaldan azad edilmiş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Bu rayonlar böyük iqtisadi potensiala malikdir. Təbii ki, həmin iqtisadi rayonların imkanlarından səmərəli istifadə və onların potensialının ölkə iqtisadiyyatına inteqrasiyası Azərbaycanın bundan sonrakı dövrdə daha sürətli inkişafını təmin edəcək. İndi həmin ərazilərdə bərpa prosesi ən müasir tələblərə cavab verən səviyyədə müasir texnologiyaların tətbiqi ilə həyata keçirilməkdədir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında qısa müddət ərzində nəhəng infrastruktur layihələri artıq reallaşdırılıb və hal-hazırda da bu istiqamətdə işlər davam edir.

YAP Sədrinin müavini qeyd edib ki, bu gün dövlətimizin əsas məqsədlərindən biri işğaldan azad olunmuş ərazilərə həyatın qaytarılması, Böyük Qayıdışın təmin edilməsidir: “Həmin ərazilər minalardan təmizləndikcə məskunlaşma prosesi həyata keçiriləcək. Təbiidir ki, insanlarımız doğma torpaqlarına qayıtdıqca ən aktual, ən vacib məsələlərdən biri də onların iqtisadi fəallığının, məşğulluğunun təmin edilməsidir. Bu proses ölkəmizin daha sürətli inkişafı üçün möhkəm zəmin yaratmış olacaq. Bilirsiniz ki, həmin iqtisadi rayonların iqtisadiyyatına, o cümlədən sosial infrastruktur layihələrinə böyük investisiyalar yatırılır. Dövlət büdcəsinin önəmli bir hissəsi bu ərazilərdə quruculuq işlərinin yerinə yetirilməsinə sərf olunur. Eyni zamanda, bu prosesdə xarici ölkələrin də şirkətləri iştirak edirlər. Xüsusilə, qardaş Türkiyənin şirkətləri həmin ərazilərdə fəal çalışır. Bununla belə bu prosesə yerli sahibkarlarımızın da aktiv qoşulması çox önəmli bir məsələdir və “Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafında qadın sahibkarlığının rolu” mövzusunda keçirdiyimiz konfransın da əsas mahiyyəti odur ki, işğaldan azad edilmiş ərazilərin quruculuğunda, həmin ərazilərin sosial-iqtisadi inkişafında qadın sahibkarların iştirakını təşviq edək. Düşünürəm ki, bu konfransda dövlət orqanlarının nümayəndələri tərəfindən verilən məlumatlar, aparılan müzakirələr nəticəsində qadın sahibkarlarımızda azad edilmiş ərazilərdə mövcud vəziyyətlə bağlı aydın təsəvvür formalaşacaq və onlar həmin ərazilərin bərpası prosesində yaxından iştirak edərək quruculuq işlərinə öz töhfələrini verəcəklər”.

✍ Banu

# Deputatın qaldırdığı problem həllini tapdı



**Prezident İlham Əliyevin rəhbərliyi altında ”Regionların sosial-iqtisadi inkişafı” Dövlət Proqramı çərçivəsində həyata keçirilən uğurlu addımların və Azərbaycan Respublikası Milli Məclisinin Ucar rayonundan seçilmiş deputatı Ramil Həsənin Şahlıq kəndinə qaz xəttinin çəkilməsi ilə bağlı müvafiq qurumlar qarşısında dəfələrlə qaldırmış olduğu məsələlərin nəticəsi qaz çəkilişinin həllində müsbət istiqamətdə şərait yaradıb.**

Hafta.az xəbər verir ki, artıq 2022-ci ilin ilk günlərindən Şahlıq kəndinə qaz xəttinin çəkilişinə başlanılıb. ”Azəriqaz” ASC-dən saytımıza verilən məlumata görə, qaz xətti kəndin bütün yaşayış evlərini əhatə edəcək, yaxın günlərdə kənd camaatı mavi qazla təmin ediləcəkdir. Deputat Ramil Həsən və Ucar rayon vətəndaşları, xüsusilə, Şahlıq kənd sakinləri kəndin ən əsas narahatlıqlarından olan qaz probleminin aradan qaldırılmasına görə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə dərin təşəkkürlərini bildirir və bundan sonra da həyata keçiriləcək iqtisadi-siyasi proseslərdə hər zaman ölkə rəhbərinin yanında olacaqlarını bir daha vurğulayıblar.

# Böyük maraqla izlənilən “Azercell Hackathon 2022” yarışması başa çatdı! ®

**“Azercell Telekom” MMC-nin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən “Azercell Hackathon 2022” yarışması 25 yanvar tarixində başa çatıb. “Hackathon”da müxtəlif bacarıqlara malik, innovativ düşüncəli və potensiallı gənclər təqdim edilən texnoloji tapşırıqların ən uğurlu həllinin tapılması istiqamətində yarışıblar.**




“Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik” strateji məqsədini əsas tutan Azercell Telekom müsabiqə vasitəsilə proqramçı gənclərin rəqabət şəraitində biliklərini yoxlamasına, özünü tanıtmasına, müxtəlif proqram, innovativ məhsul və xidmətlərin meydana gəlməsinə şərait yaradır. 22-23 yanvar tarixlərində keçirilən “Azercell Hackathon 2022” müsabiqəsində 36 nəfərdən ibarət 12 komanda iştirak edib. Tədbirin açılışından sonra komandalar onlara verilən tapşırıqlar üzərində işləməyə başlayıblar. “Hackathon”boyunca iştirakçılara Azercell-in peşəkar İnformasiya Texnologiyaları və İnsan Kapitalı komandaları dəstək olub.

Qeyd edək ki, bu yarışmada iştirak üçün 30-dan çox komanda müraciət edib, ilkin mərhələdə onlardan 12-si seçimdən uğurla keçərək müsabiqəyə vəsiqə qazanıb. 23 yanvar tarixində müsabiqəyə ayrılan vaxtın sonunda iştirakçılar tapşırıqlara uyğun hazırladıqları texnoloji həlli təqdim ediblər. Yarışmanın yekun mərhələsi yanvarın 25-də ADA Universitetində baş tutub. Final zamanı iştirakçı komandalar yekun təqdimatları ilə münsiflər qarşısında çıxış ediblər. Tapşırıqları tələb olunan meyarlara uyğun şəkildə və ən yüksək nəticə ilə yerinə yetirən komandalar qalib elan olunublar. Nəticələrə əsasən “Azercell Hackathon 2022” yarışmasında 1-ci yerə “Enigma”, 2-ci yerə “Fayda”, 3-cü yerə isə “Code Geass” komandası layiq görülüb. Qaliblərə tutduqları yerlərə müvafiq olaraq 3000 AZN, 1500 AZN dəyərində pul mükafatı və qiymətli hədiyyələr təqdim olunub. Mükafatlandırma tədbirində təşkilati dəstəyi ADA Universiteti göstərib.

“Azercell Telekom “MMC qalibləri təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayır. Şirkət gənclərin elmə, təhsilə, innovativ yanaşmaya, texnologiyalara və rəqabətədavamlı biliklərə yiyələnməsinə hər zaman xüsusi önəm verir və bu istiqamətdə təşəbbüs və layihələri davam etdirəcək.

# “Nar” Azərbaycan çempionu tituluna sahib oldu ®

**“Nar” komandası bütün rəqiblərini geridə qoyaraq “Breyn Rinq” üzrə 2021-cu ilin Azərbaycan çempionu tituluna sahib olub.**

Azərbaycannın 6 universitet və 6 region komandası da daxil olmaqla 16 komanda 4 ay boyunca gərgin mübarizə aparıb. Finalda “Nar” komandası “Bilik” kubokunun sahibi “Bridge” komandası ilə qarşılaşıb və ilin qalib olub.

“Azerfon”un Baş icraçı direktoru Qunnar Panke qalib




“Nar” komandasının üzvləri ilə görüşüb və onları təbrik edib: “Nar” komandasının mütləq çempion olaraq xüsusi seçilməsi sizin əzminiz, savadınız və cəld düşünmə qabiliyyətiniz sayəsində olub. Belə savadlı gənclərin nailiyyətləri bizi sevindirir və uğurlarınızın davamlı olmasını diləyirəm”. Qeyd edək ki, “Breyn Rinq” bilik yarışı “Nar”ın korporativ sosial məsuliyyət strategiyası çərçivəsində elm və təhsilə dəstək layihələrindən biridir. Mobil operator artıq 9 ildir ki, “Breyn Rinq” intellektual oyununa dəstək olur. “Nar”ın sosial layihələri haqqında ətraflı məlumatı http://www.nar.az səhifəsindən əldə etmək olar.

# "MEMİ"lər - tələbat, ya təhlükə mənbəyi?

**Reportaj**

***Hər il, təxminən, 100 milyard paltar istehsal olunur, lakin bu miqdarın 85%-i elə həmin il tullantı kimi atılır. Bundan başqa, xeyriyyə təşkilatlarına verilən paltarların yalnız 10%-i ehtiyacı olanlara çatdırılır. Bu da sirr deyil ki, Qərb ölkələrinin geyim zibillikləri daha çox inkişaf etməmiş ölkələrdə yığılır. Dəbin təbiətə vurduğu ziyan həddindən artıq istehsal olunan və zibilə atılan paltarlar ilə də məhdudlaşmır.***



Bu yerdə "second hand" geyim alqı-satqısı həm insanların, həm də təbiətin köməyinə çatır. İkinci əl paltarlar almağın üstünlüyü onları israf etməməkdədir.Hesabatlara görə, yaxın 10 ildə ABŞ-da ikinci əl geyim bazarı indikindən üç dəfə çox olacaq.

Hazırda ölkəmizdə də ikinci əl paltar ticarəti geniş yayılıb. Elə isə gəlin görək, bizdə bu sahəyə maraq hansı səviyyədədir? Kimlər ikinci əl paltarlar alır? Bu geyimlər haradan gətirilir və hansı şəraitdə təmizlənir?

Hafta.az-ın əməkdaşı mövzunu araşdırmaq məqsədilə paytaxtın Nərimanov rayonu ərazisində yerləşən "MEMİ"lərə üz tutdu.

■ **Məsələ ilə bağlı bir neçə ikinci əl geyim dükanının satıcıları ilə ayaqüstü söhbət apardıq. Demək olar, bütün həmsöhbətlərimiz paltarların Avropa ölkələrindən gətirildiyini, həmçinin xüsusi məhlullarla dezinfeksiya olunduğunu bildirdilər.**

Nəzərinizə çatdıraq ki, belə mağazaların qapılarına "Avropadan gətirilmiş paltarlar ucuz qiymətlərlə", "Brend paltarlar 25% endirimlə" kimi yazılar yazılmışdı. İlk olaraq elə ucuz qiymət yazılı etiketlər, təzə kimi görünən məhsulları axtardıq. "MEMİ"lər dəbdəbəli mağazalardan çox fərqlidir. Bu məkanların qaranlıq vitrinlərində müştərilərə təklif olunan paltarları gözə daha xoş göstərmək üçün heç bir ticarət hiyləsi edilmirdi. Sıx asılmış paltarların bəziləri kənardan rəngi solmuş, tozlanmış görüntü verirdi. İkinci əl geyimlərlə bağlı bizləri maraqlandıran bütün suallara həmsöhbətimiz Sevinc xanım aydınlıq gətirdi. O, nə az, nə çox, düz - 10 ildir çörəyini ikinci əl geyimlərdən çıxarır.

> *Həkimlər, müəllimlər, hüquqşünaslar var ki, "MEMİ"nin daimi müştərilərinə çevriliblər*

Satıcının sözlərinə görə, teztez mağazada məhsullara 25% endirim edilir. Özəl günlərdə, əsasən də Ramazan və Qurban bayramlarında bir də mövsümün sonlarına doğru 50% endirimlər də olur:

"Burada satılan hər şey Avropa ölkələrindən, Belçika və Hollandiyadan gətirilən brend məhsullardır.10 ilə yaxındır, başqa-başqa yerlərdə "MEMİ"lərdə çalışmışam. Son 4 ildə isə burada işləyirəm. Əvvəlki illərə nisbətən hazırda bizdə alver elə də yaxşı getmir. Yan-yörədə o qədər "MEMİ" açılıb ki, hər kəs öz evinə yaxın olana üz tutur. Əvvəllər satış çox yaxşı idi. "Nərimanov" metro stansiyasının yaxınlığında 1-2 "MEMİ" var idisə, indi bu say 10-dan çoxdur. Bu səbəbdən də satışların azalması mənə normal gəlir. Fikrimcə, "MEMİ"lərə tələbat var ki, sayları bu qədər çoxalıb".

İnsanlar düşünür ki, "paltar ikinci əldirsə, qiyməti ucuzdur". İndi "MEMİ"lərdə 25 manatdan aşağı heç nə tapmaq olmur. Bu hədd, hətta 700-800 manata qədər yüksəlir. "Belə ikinci əl geyim dükanlarında dollar qalxmamışdan - təxminən, 7-8 il bundan əvvəl 50-60 qəpiyə, 1 manata paltar satılırdısa, indi ən ucuz məhsul 20-25 manatdan başlayır. Bütün hallarda Bakıda bu qiymətə brend mal tapmaq qeyri-mümkündür. Üstəlik, geyimlər təmiz və keyfiyyətli olur. Yuyulduqdan sonra belə rəngi dəyişmir və tiftiklənmir. Özüm də bütün pal-paltarımı buradan alıram".

Söhbət zamanı məlum oldu ki, buradan alış-veriş edənlər arasında müəllimlər, həkimlər, vəkillər və başqaları da var. Niyə də olmasın? İndiyə qədər dünyaca məşhur aktrisa və sənətçilərin bəzilərinin ikinci əl geyimlərinə üstünlük verdikləri haqqında az məlumat oxumamışıq: "Haradasa 10 il əvvəl işə təzə başlayanda öz-özümə deyirdim ki, "Kim gəlib buradan alver edər? Başqasının paltarını alıb geyinər?".

Daha sonra gördüm ki, heç də elə deyil. Həkimlər, müəllimlər, hüquqşünaslar var ki, "MEMİ"nin daimi müştərilərinə çevriliblər. Qadınlar həmişə geyinib-kecinməyi sevən olublar. Qazancı elə də yüksək olmayan insanlar hansısa brend paltar mağazasından 70 manata 1 dənə köynək alıb geyinməkdənsə, həmin pula buradan 3-4 məhsul almağı daha üstün tutur. Mən heç vaxt burada satılan hansısa paltardan narazılıq edən müştəri görməmişəm. Deyirlər ki, "İkinci əl ayaqqabı almaq təhlükəlidir, adama xəstəlik keçirər". İnandırım sizi, bu günə qədər satdığım bütün ayaqqabılar alıcıları razı salıb. Onsuz da bu məhsullar Avropada xüsusi dərmanlarla dezinfeksiya edilib, təmizlənib.

Ola bilsin bir çoxu yuyulmayıb, ancaq bakteriyalardan təmizləndiyinə əminəm". Biz söhbət edərkən müştərilərin öz aralarında pıçıldaşmasını da eşidirik. Deyəsən, kiməsə hədiyyə alırlar. Elə hey bir-birlərinə "Bu ayaqqabı yaxşıdır, görəsən, ayağına olacaq?", "Səncə bəyənər?" kimi suallar verirdilər.

Qayıdaq paltarların keyfiyyəti məsələsinə... Təəssüflər olsun ki, mövzuda satıcılarla mütəxəssislərin rəyləri bir-birinə ziddir. Ekspertlərin fikrincə, bu zaman insanlar, hətta Azərbaycan üçün tanış olmayan infeksiyalara yoluxa bilərlər.



■ **Müsahibimiz Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, ikinci əl mallar bütün dünyada istehlakçı hüquqlarını pozan ciddi məsələlərdən biridir. Burada avtomobillər və evlər ilk sıralarda dayanır. İkinci əl geyimlərlə bağlı şikayətlər ildən-ilə azalır:** "Avropa ölkələrində ikinci əl paltarların hansı şəraitdə toplanmasına öz gözlərimlə şahid olmuşam. Müxtəlif müqavilələr əsasında belə paltarlar həm də Azərbaycana gətirilir. Həmin paltarlar alış qiymətindən 15-20 dəfə baha satılır.

Apardığımız araşdırmalara görə, həmin paltarların içərisində 5 yaşından kiçik uşaqlar üçün geyimlər olmamalıdır. Biz isə görürük ki, bu yaş kateqoriyası üçün geyimlər satışda mövcuddur. Belə məhsullar başqa ölkələrə xas olan dəri xəstəliklərinin ölkəmizə gəlməsinə səbəb olan ilkin amillər sırasındadır".

> *Apardığımız araşdırmalara görə, həmin paltarların içərisində 5 yaşından kiçik uşaqlar üçün geyimlər olmamalıdır*

Ekspertin sözlərinə görə, daxil olan şikayətlərin əksəriyyəti alınan paltarların qaytarılması və dəyişdirilməsi ilə bağlıdır. E.Hüseynov daha sonra vətəndaşlara satıcının təmizlik vədlərinə inanmamağı tövsiyə etdi. O bildirdi ki, ikinci əl geyim alan hər kəs onu yuduqdan və ütülədikdən sonra istifadə etməlidir.

*Banu*

# "Azərbaycan Uşaq Qaynar Xətti" 2021-ci ilə olan hesabatı təqdim edib

Ⓡ

**On bir ildən artıqdır ki, "Azercell Telekom" MMC-in, UNİCEF Azərbaycanın və "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin birgə əməkdaşlığı ilə fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" (AUQX) xidməti yarandığı gündən müxtəlif problemlərlə üzləşmiş uşaqlara kömək edir. Qeyd edək ki, bu illər ərzində xidmətə 53000-dən çox müraciət daxil olub.**



Bu müddət ərzində qurulan uğurlu əməkdaşlığın indiki səviyyəsini müzakirə etmək və gələcək konturlarını müəyyənləşdirmək məqsədilə "Azercell Telekom" MMC-nin Korporativ Ünsiyyət departamentinin direktoru Sona Abbasova, şirkətin Media ilə əlaqələr üzrə direktoru Nigar Şıxlinskaya və digər nümayəndələri ilə "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin icraçı direktoru Kəmalə Aşumova və sədri Nabil Seyidov arasında görüş keçirilib. Görüşdə gələcək planlar müzakirə olunub, daha fərqli istiqamətlərdə əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb. Sonda "Azercell Telekom" MMC "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətini dəstəkləməklə uşaqların hüquqlarının qorunmasında uzunmüddətli töhfəyə və əməkdaşlığa görə "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi tərəfindən Fəxri Fərmanla təltif olunub.

"Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinin təqdim etdiyi hesabata əsasən mərkəzə 2021-ci il ərzində müxtəlif sahələri əhatə edən problemlərin həlli ilə bağlı 5300-ə yaxın zəng edilib. Bunlardan 1471-i təhsil, 1036-sı hüquqi, 822-si psixoloji, 606-sı səhiyyə, 501-i sosial və digər məsələlərlə bağlı zənglər olub. Müraciət edənlərə əsasən telefon vasitəsilə psixoloji yardım göstərilib, ehtiyac olduqda isə fərdi və qrup terapiyaları həyata keçirilib. Həmçinin ailələrdə psixoloji və fiziki zorakılıq halları ilə bağlı 414 müraciət daxil olub. Bu müraciətlərin hər biri ilə əlaqədar ailələrlə iş aparılıb, hüquqi məsləhətlər verilib.

İl ərzində qaynar xəttə daxil olmuş müraciətlərin araşdırılması və müvafiq yardımların göstərilməsi məqsədilə mərkəz tərəfindən müxtəlif təşkilatlara 364 məktub ünvanlanıb. Bəzi müraciətlərin ətraflı araşdırılması məqsədilə 81 ailə mərkəzə dəvət olunub, onların uşaqları ilə 263 sosial-psixoloji reabilitasiya işi həyata keçirilib. Daxil olan müraciətlərə əsasən bir sıra ailə və məktəbə təcili-təxirəsalınmaz səfər təşkil edilib.

Qeyd edək ki, "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinin fəaliyyəti yalnız zənglərin cavablandırılması ilə bitmir. Eyni zamanda, hər il əhalinin məlumatlılığının artırılması, uşaq və yeniyetmələr üçün əlçatanlığın təmin edilməsi məqsədilə qaynar xətt xidmətinin əməkdaşları tərəfindən müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilir. Ümumilikdə, 2021-ci il ərzində maarifləndirmə tədbirlərinə 1500-dən çox uşaq cəlb olunub.

"Uşaq Qaynar Xətt"inə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, ushaqqaynarxetti@gmail.com elektron poçtu, Facebook və Instagram sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.

## HƏFTƏ REYTİNQ

### Həftənin YUBİLYARI



Prezident İlham Əliyev Fatma Səttarovanın "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Fatma Hüseyn qızı Səttarova "İstiqlal" ordeni ilə təltif edilib.

### Həftənin TƏHDİDİ



ABŞ Prezidenti Co Bayden Rusiya Ukraynaya hücum edəcəyi təqdirdə, Rusiya Prezidenti Vladimir Putinə şəxsən sanksiyalar tətbiq edəcəyini istisna etməyib. Bu barədə o, jurnalistlərə açıqlamasında deyib. Bayden Rusiya qüvvələrinin Ukraynaya müdaxiləsi halında Rusiya Prezidenti Vladimir Putinə şəxsən sanksiyalar tətbiq etməyi mümkün görüb-görmədiyi sualına "hə" cavabını verib.

### Həftənin SƏFƏRİ



İranın yol və şəhərsalma naziri Rüstəm Qaseminin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər edib. İranın nümayəndə heyəti, həmçinin işğaldan azad olunan torpaqlara da olub. Zəngəzur dəhlizi ilə bağlı görülən işlər barədə ətraflı məlumat alıb.

### Həftənin İSTEFASI



Ermənistanın yenicə istefa vermiş prezidenti Armen Sarkisyan hazırda xarici ölkədə tibbi müayinədən keçir. Bu barədə məlumatı Sarkisyanın Mətbuat xidməti yayıb. Bildirilir ki, A.Sarkisyan bu səbəbdən istefa ərizəsini xaricdə olarkən yazıb. Onun müayinəsi bitdikdən sonra Ermənistana qayıdacağı gözlənilir.

### Həftənin KORONAVİRUS XƏSTƏSİ



Dünya şöhrətli britaniyalı müğənni Elton Con koronavirusa yoluxub. Bu barədə o, İnstaqram hesabında paylaşım edib. O bildirib ki, tam vaksinasiyadan keçib. Müğənni qeyd edib ki, xəstəliyi yüngül keçirir. Onun iki konserti bu səbəbdən təxirə salınıb.

### Həftənin HƏDİYYƏSİ




"Paris Sen-Jermen" klubunun hücumçusu Lionel Messi Katolik kilsəsinin Lion yeparxiyasının rəhbəri Emmanuel Qobilyardan hədiyyə alıb. Argentinalı hücumçuya Roma Papası Fransiskin imzası olan köynək hədiyyə edilib. Bu barədə o, öz Tvitter hesabında məlumat yayıb: "Bu gün Lionel Messiyə Papa Fransisin imzası olan ilk rəsmi Vatikan köynəyini verdim. Messi mömindir və o, mənə bu jestin onun üçün nə qədər vacib olduğunu söylədi. Biz birlikdə dua etdik".

### Həftənin ÖLÜMÜ



Məşhur fotoqraf Rene Rober Parisin mərkəzi küçələrinin birində donaraq ölüb.

Bu barədə məlumatı fotoqrafın yaxın dostu, jurnalist və musiqiçi Mişel Momponte "RTL" radiosunun efirində açıqlayıb. Onun sözlərinə görə, 84 yaşlı Rene Rober axşam saatlarında küçədə gedərkən özünü pis hiss edib və yıxılıb. Başından zərbə alan fotoqraf 5 saatdan çox səkinin üzərində qalıb. Ətrafdan keçən insanlar isə ona yaxınlaşmayıb. Küçədə yaşayan bir kişi ona yaxınlaşdıqda artıq çox gec olub. Polisə hadisə barədə məlumatı məhz həmin şəxs verib.

*Azad Əliyev*

## GÜNÜN FOTOSU



Ukraynada Lvov sakinləri hərbi təlimdə iştirak edirlər...

# "Himayədar ailə"nin yeni modeli

**Lamiyə İsazadə,**
"Kimsəsiz Uşaqların Sosial Müdafiəsi" İctimai Birliyinin sədri

Bu xidmət hər hansı səbəbdən öz ailəsi ilə qala bilməyən uşaqların könüllü ailələr tərəfindən qayğı və tərbiyəsidir.

►► Səh. 4

## STATİSTİKA



■ Orta hesabla uşaqlar gündə təxminən 400 dəfə, böyüklər isə gündə təxminən 15 dəfə gülürlər.

■ Sevdikləri tərəfindən rədd edilən sevgililərin 40%-i klinik depressiyaya düşür.

■ İnsan ömrü boyu Yerin 5 ekvatoruna bərabər məsafə qət edir.

■ Dünyada təxminən 365 milyon insanın kompüteri var və dünya əhalisinin yarısı heç vaxt telefon görməyib və istifadə etməyib.



►► Səh. 6

# Azərbaycanın balıq ehtiyatları